

Milli azadlıqdan şirin nemət yoxdur!



# COP29-dan açıq mesajlar...

Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
21 noyabr 2024-cü il, cümə axşamı
№ 213 (6799)
Qiyməti 60 qəpik




# Zəfərlər partiyası!

## YAP-ın təsis konfransından 32 il ötür...

Bax səh. 3

## Azərbaycan rəsmi Parisdən tələb edir...

Bax səh. 2

## 13-cü Ümumdünya Şəhərsalma Forumu Azərbaycana həvalə edilib

Noyabrın 19-da Prezident Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyev COP29 çərçivəsində ölkəmizdə səfərdə olan Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Anaklaudia Rossbaxın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Azərbaycan ilə UN-HABITAT arasında faydalı əməkdaşlıqdan, bu çərçivədə 2022-ci ildə Ağdam şəhərində, 2023-cü ildə Zəngilanda Milli Şəhərsalma forumlarının və Bakıda "Ümumdünya Məskunlaşma Günü" tədbirlərinin uğurlarından bəhs olunub. Məskunlaşma mövzusu COP29-un gündəliyində də prioritetlər sırasında yer almaqla Azərbaycan və UN-HABITAT arasında əməkdaşlığın mühüm göstəricisi olduğunu, eyni zamanda, tərəflərin urbanizasiyaya xüsusi həssas münasibətni təsdiqləyir.

**"Yaşıl şəhərsalma"da UN-HABITAT-ın tövsiyələri**

Qlobal urbanizasiyanın artdığı şəraitdə şəhərlərin dayanıqlı və təhlükəsiz inkişafını təmin etmək...

Bax səh. 4



## Ətraf mühitin mühafizəsi uğrunda...

Bax səh. 5

## Fermerlər üçün Bakı Harmoniyası...

Bax səh. 4

## COP29 məğlubiyyətinə düçar olan "Freedom House"...

Bax səh. 6

## Vergi Məcəlləsində nə, necə dəyişir?

Bax səh. 5

## Rusiyadan "təmkinli qərar"...

Bax səh. 7

## Ermənistana qarşı əsas iddia sənədi Haaqa Məhkəməsinə təqdim olunub

Ermənistan 30 illik işğal dövründə respublikamıza vurduğu ziyana görə təzminat ödəməlidir. Dövlətimiz bu istiqamətdə beynəlxalq məhkəmə instansiyalarında iddialar qaldırıb. Çünki Ermənistan Azərbaycana qarşı törətdiyi cinayətlərlə beynəlxalq qanun və kovnesiyaların tələblərini kobud şəkildə pozub. Bu fakt işğalçı ölkəyə qarşı hüquqi məsuliyyət yaradır. Dövlətimiz məhkəmə iddialarında da məhz beynəlxalq konvensiyalara və digər hüquqi sənədlərə istinad edir.

**Ermənistan Enerji Xartiyası Müqaviləsinin müddəalarını pozub**

Bu xüsusda qeyd edək ki, Azərbaycan beynəlxalq səviyyəli Enerji Xartiyası Müqaviləsinə əsasən, Qarabağın və Şərqi Zəngəzurun zəngin mineral resurslarını, hidroenerji ehtiyatlarını qanunsuz istismar etdiyinə görə, 2023-cü il fevralın 27-də işğalçı ölkəyə qarşı dövlətlərarası arbitraj prosesi başladıb. Azərbaycan 1991-ci ildən 2020-ci ilə qədər Ermənistanın ərazilərimizin 30 ilə yaxın qanunsuz işğalı dövründə Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarını pozduğuna görə bu ölkədən...

Bax səh. 2



## "Ekofəal" siyasi alət rolunda

Bax səh. 6

## Avropa narahatdır

Bax səh. 7

# COP29-dan açıq mesajlar...

## Konfransın gündəliyi iqlim problemlərinin həllində əsaslı rola malikdir

Azərbaycanda keçirilən COP29 qlobal iqlim dəyişikliyi problemlərinin ciddiliyinə dair beynəlxalq ictimaiyyətin diqqətini daha geniş şəkildə cəlb edir. Tədbir bu mənada, ideal platforma kimi özünü təsdiq etməkdədir. Arxada qalan 11 günə nəzər saldıqda konfransın gedişi onu deməyə əsas verir ki, xüsusilə az inkişaf etmiş və iqlim dəyişikliyindən ən çox təsirlənən ölkələrin problemləri Azərbaycanın ortaya qoyduğu təşəbbüslə qlobal miqyasda önə çıxarılır. Bu, dünya liderlərini, beynəlxalq təşkilatları və özəl sektoru iqlim böhranına qarşı daha effektiv və birgə fəaliyyətə səsləyir.

Eyni zamanda, COP29 çərçivəsində elm adamları, siyasətçilər və mütəxəssislər qlobal iqlim problemlərindən həll yolları üzərində birgə müzakirələr aparmaq imkanı qazanır - bu müzakirələr isə gələcəkdə problemlərin daha dərindən araşdırılmasını, iqlim dəyişikliyinə qarşı mübarizə müstəvisində yeni çağırışların yaranmasını və yayılmasını təmin edir. Konfrans, həmçinin müxtəlif ölkələrin uğurlu təcrübələrini paylaşmaq üçün mükəmməl bir məkan kimi yadda qalmaqdadır.

### "Yaşıl" prioritetlər - Azərbaycan nümunəsi...

COP29-un əhəmiyyəti bir sıra xüsusiyyətlərinə görə daha qabarıq şəkildə önə çıxır - platforma həm qlobal, həm regional, həm də daxili auditoriyaya mühüm mesajlar ünvanlayır. Qlobal iqlim dəyişikliyinə qarşı mübarizə sahəsində yeni təbliğat imkanları yaradan və mövzunun müzakirə sərhədlərini daha da genişləndirən platformanın müsbət təsirləri artıq hiss olunmaqdadır. Aktual mövzulara dair müxtəlif panel iclaslarında dünyanı narahat edən mövzular masalara "daşınır" - məsələn, "İqlim Dəyişikliyinin Beynəlxalq Göstəriciləri və Təsirləri" adlı müzakirədə iştirak edən ekspertlər, iqlim dəyişikliyinin inkişaf etməkdə olan ölkələrdə, xüsusən Afrikada və Cənubi Asiyada necə ağır nəticələrə səbəb olduğunu vurğuladılar. Paneldə, qlobal müstəvidə yerli icmaların bu problemi necə həll etməyə çalışdıqları və daha effektiv tədbirlərin alınması üçün beynəlxalq əməkdaşlığın vacibliyi müzakirə edildi. Həmçinin bir çox ölkələrin iqlim dəyişikliyinə adaptasiya və mübarizə üçün təkmilləşdirilmiş texnologiyalardan istifadə etməkdənsə, hələ də ənənəvi enerji mənbələrinə bağlı qaldığı qeyd olundu. Bu mənada, onlara Azərbaycan nümunəsi təqdim edildi - ənənəvi enerji mənbələrinə malik olduğu halda, Azərbaycan artıq illərdir ki, yaşıl hədəflər uğrunda prioritetlərini müəyyənləşdirib, qlobal iqlim dəyişikliyinə qarşı töhfələri ilə bağlı siyasətini müəyyənləşdirib.

### "Yaşıl" hədəflər uğrunda...

Beləliklə, COP29 beynəlxalq auditoriya üçün "yaşıl" hədəflərin daha yüksək şəkildə təbliğinin təmin olunmasında əsaslı mənbə kimi çıxış edir. "Yaşıl" hədəflərin qlobal səviyyədə təbliği iqlim dəyişikliyində daha çox məsuliyyət daşıyan ölkələr üçün əyani vəsaitə çevrilir - məsələn, "Gələcəyin Yaşıl Enerji Hədəfləri: Siyasət və Texnologiya" adlı paneldə çıxış edən nümayəndələr ölkələrinin enerji siyasətində əsaslı dəyişikliklər etdiklərini və "yaşıl" enerji keçidi üçün sərmayə qoyuluşlarının artırıldığını açıqladılar. Bu paneldə, "yaşıl" enerji hədəflərinin həyata keçirilməsi üçün iş birliyinin necə gücləndirilə biləcəyinə dair konkret təkliflər və təşəbbüslər təqdim olundu ki, bu da problemin real həlli üçün müstəsna bir xidmətdir.

Beləliklə, iqlim dəyişikliyinə diqqətin cəlb edilməsi, yenilənə bilən enerji mənbələrinə keçidin sürətləndirilməsi, emissiyaların azaldılması üçün dövlətlərarası razılaşmaların gücləndirilməsi, karbon vergisi və digər maliyyə mexanizmlərinin geniş tətbiqi, iqlim maliyyələşdirməsinə diqqət, xüsusilə də kiçik ada dövlətləri və inkişaf etməkdə olan ölkələr üçün bu əhəmiyyətli fəaliyyətin reallaşdırılması COP29 gündəliyinin önə çıxan əsas tezislərinə çevrildi.




### Problemlərin həlli yolları araşdırılır...

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası iqlim problemləri ilə bağlı həll yollarının araşdırılmasına da xüsusi töhfə bəxş edir. Müxtəlif panel iclaslarında qlobal iqlim problemlərinin həlli yolları geniş şəkildə müzakirə olunur. Məsələn, "Yaşıl İqtisadiyyatın İnkişafı və Sıfır Karbon Hədəflərinə Yaxınlaşma" adlı panel iclasında daha təmiz və "yaşıl" enerji mənbələrinə keçid üçün milli və regional strategiyalar təqdim edildi. Bu paneldə, "Yaşıl Razılaşma" strategiyası ilə karbon emissiyalarını sıfıra endirmək məqsədləri, həmçinin böyük dövlətlərin enerji keçidi və innovasiya sahəsindəki müsbət təcrübələri paylaşıldı. Həmçinin təkrar emal və dayanıqlı kənd təsərrüfatı metodları mövzusunda da bir çox irəliləyişlər müzakirə olundu.

Müzakirələr həm də qlobal məkan üçün əsaslı probleme çevrilən məsələlərin həll yollarının təklif edilməsi ilə yadda qaldı - COP29 çərçivəsindəki "İqlim Maliyyələşməsi və Texnologiyaların Yayılması" adlı panel, konkret həll yollarının müəyyənləşdirilməsinə yaxından kömək etdi. Burada beynəlxalq maliyyə qurumlarının, xüsusən Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun, inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün verdikləri maliyyə dəstəyi və texnoloji həllərin yayılması barədə ətraflı məlumat verildi. Paneldə, həmçinin yerli icmalara təmiz enerjiyə keçid və infrastruktur inkişafı üçün verilməli olan dəstəklər ətrafında müzakirələr aparıldı. Konkret olaraq, bərpa olunan enerji mənbələrinə keçid edən ölkələrin təcrübəsi və bu yolda atılan müsbət addımlar geniş müzakirə olundu.

### Azərbaycanda yeni çağırışlar formalaşdırılıb...

COP29-un əhəmiyyəti qlobal miqyasla yanaşı, həm də regional və daxili auditoriya baxımından da mühüm və əvəzedilməzdir. Tədbirdə səslendirilən fikirlər, önə çəkilən məsələlər ictimai diqqətin iqlim problemlərinə yönləndirilməsinə yol açmaqdadır. COP29 daxili auditoriyaya yönəlmiş müzakirələrdə iqlim problemlərinə dair geniş ictimai marağı özündə əks etdirdi - iqlim maarifləndirməsinə həsr olunan çoxsaylı tədbirlər Azərbaycanda iqlim dəyişikliyi ilə mübarizədə və ekologiyanın qorunmasında vətəndaş cəmiyyətinin roluna dair yeni çağırışlar formalaşdırdı. Bu panellərdə gənclərin və cəmiyyətin hər yaş qrupunun iqlim dəyişikliyi barədə məlumatlılığını artırmaq üçün müxtəlif təbliğat kampaniyalarının həyata keçirilməsi zəruriliyi vurğulandı. Eyni zamanda, müzakirələrdə insanların gündəlik həyatlarında ekoloji düşüncə tərzini necə inkişaf etdirə biləcəkləri barədə təkliflər təqdim edildi.

### "Yaşıl" dünya şəhər və kəndlərdən başlayır...

Tədbir çərçivəsində baş tutan panellərdə ekologiyanın qorunması üçün səfərbərliyin təmin edilməsi məsələsi də ön plana çıxarıldı, Azərbaycanda ekologiyanın qorunması və yaşıllıq ərazilərin artırılması məqsədilə görüləcək işlər müzakirə olundu. Dövlətin ekologiya sahəsindəki siyasəti, həmçinin vətəndaşların bu sahəyə cəlb edilməsi, təbii sərvətlərin qorunması və bərpa olunması ilə bağlı bir çox konkret tədbirlər müzakirə predmetinə çevrildi. Kənd təsərrüfatında ekoloji təmiz məhsulların istehsalına diqqət yetirilməli olduğu və bunun üçün geniş təbliğat fəaliyyətlərinin həyata keçirilməsi zərurəti vurğulandı.

Paralel olaraq yaşıllıqların qorunması məsələsi mühüm müzakirə mövzusu kimi ortaya çıxdı - bu panellərdə yaşıl sahələrin qorunması və genişləndirilməsi mövzusunda şəhərsalma və ekologiya mütəxəssisləri öz fikirlərini bölüşdülər. Azərbaycanda şəhər və kənd ərazilərində yaşıl sahələrin artırılması və mühafizəsi üçün alınacaq konkret addımlar barədə məlumat verildi. Həmçinin şəhərlərdə yaşıllıq sahələrinin artırılmasının ətraf mühitə və insanların həyat keyfiyyətinə necə müsbət təsir göstərdiyi ətraflı şəkildə izah olundu.

### Xəzərin problemləri ön planda...

Böyük bir coğrafiyanı özündə birləşdirən Xəzər hövzəsi bu gün ekoloji problemlərin girdabındadır - sirr deyil ki, Xəzərin çirklənməsinin qarşısının alınması istiqamətində əsaslı şəkildə regional fəaliyyət nümayiş etdirilir. Xəzər dənizinin qorunması məsələsi COP29-un ən geniş müzakirə predmetlərindən birinə çevrildi. Bu mövzuya həsr olunan panellərdə Xəzər dənizinin çirklənməsinin qarşısını almaq üçün yerli və beynəlxalq əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti vurğulandı. Müzakirələrdə Xəzər sahilindəki ölkələrin birgə səylərinin artması, dənizi çirkləndirmənin azaldılması və su hövzəsinin təmizliyinin qorunması ilə bağlı konkret təkliflər irəli sürüldü.

### İqlim dəyişikliyinə qarşı qlobal mübarizə təbliğatı...

Beləliklə, COP29 iqlim dəyişikliyinə qarşı qlobal mübarizənin təşkili ilə yanaşı, həm də qlobal təbliğatın gücləndirilməsində mühüm amilə çevrilir. İstər ölkə daxilində, istərsə də beynəlxalq arenada maarifləndirmə kampaniyalarının necə həyata keçirilməsi barədə geniş müzakirələrə yer verilir - Bu panellərdə iqlim təhsili müəssisələrinin və qeyri-hökumət təşkilatlarının iqlim maarifləndirməsi üçün necə daha təsirli proqramlar həyata keçirə biləcəyi barədə müzakirələr aparılır. Həmçinin dövlətin iqlim təhsili və maarifləndirmə sahəsindəki fəaliyyətlərinə dair irəliləyişlər təqdim olunur.

***P.İSMAYILOV***

# Azərbaycan rəsmi Parisdən tələb edir...

## Fransanın səfiri Xarici İşlər Nazirliyinə çağırılıb



Noyabrın 20-də Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb.

Bu barədə nazirliyin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Görüş zamanı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində və sessiya zamanı Fransanın Azərbaycan sədrliyinin hədəf alınmasına etiraz bildirilib.

Bu xüsusda, Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin bu mötəbər tədbirinin boykot edilməsinə çağırışların, bir çox dövlət başçılarının tədbirə qatılmamağa Fransa tərəfindən təşviq edilməsinin, eləcə də COP29 konfransı başlayan zaman Fransanın xüsusi səyləri ilə Avropa Parlamentində sədrliyimizi əsassız şəkildə tənqid edən, ümumiliklə isə iqlim dəyişmələri ilə mübarizə sahəsində qlobal səylərimizə qarşı çevrilmiş qətnamənin qəbulunun qəbuledilməz olduğu vurğulanıb.

Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, militarizmi və revanşizmi təşviq edən Fransanın addımlarının sülh prosesinə zərbə olduğu diqqətə çatdırılıb.

Azərbaycanı hədəf alan, eləcə də normallaşma prosesini təhlükə altına salan bu addımlara son qoyulması Fransa tərəfindən təkidlə tələb olunub.

# Ermənistana qarşı əsas iddia sənədi Haaqa Məhkəməsinə təqdim olunub

## İşğalçı ölkə hidroenerji ehtiyatlarımızı qanunsuz istismar etdiyinə görə cəzalandırılacaq

*Nardar BAYRAMLI*

Ermənistan 30 illik işğal dövründə respublikamıza vurduğu ziyana görə təzminat ödəməlidir. Dövlətimiz bu istiqamətdə beynəlxalq məhkəmə instansiyalarında iddialar qaldırıb. Çünki Ermənistan Azərbaycana qarşı törətdiyi cinayətlərlə beynəlxalq qanun və kovnesiyaların tələblərini kobud şəkildə pozub. Bu fakt işğalçı ölkəyə qarşı hüquqi məsuliyyət yaradır. Dövlətimiz məhkəmə iddialarında da məhz beynəlxalq konvensiyalara və digər hüquqi sənədlərə istinad edir.

**Ermənistan Enerji Xartiyası Müqaviləsinin müddəalarını pozub**

Bu xüsusda qeyd edək ki, Azərbaycan beynəlxalq səviyyəli Enerji Xartiyası Müqaviləsinə əsasən, Qarabağın və Şərqi Zəngəzurun zəngin mineral resurslarını, hidroenerji ehtiyatlarını qanunsuz istismar etdiyinə görə, 2023-cü il fevralın 27-də işğalçı ölkəyə qarşı dövlətlərarası arbitraj prosesi başladıb. Azərbaycan 1991-ci ildən 2020-ci ilə qədər Ermənistanın ərazilərimizin 30 ilə yaxın qanunsuz işğalı dövründə Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarını pozduğuna görə bu ölkədən təzminat və maliyyə kompensasiyası tələb edib. İddia sənədində vurğulanıb ki, Ermənistan hərbi güc yolu ilə Azərbaycanı Qarabağ bölgəsindəki enerji resurslarından istifadədən məhrum edərək ölkəmizin enerji ehtiyatlarını öz xeyrinə istismar etməklə, habelə öz milli enerji siyasətinə və ətraf mühitlə bağlı öhdəliklərinə uyğun olaraq enerji ehtiyatlarını daha da inkişaf etdirmək imkanından məhrum etməklə Enerji Xartiyası Müqaviləsinin çoxsaylı müddəalarını və beynəlxalq hüququn fundamental prinsiplərini pozub.

**Əsas iddia sənədində nələr var?**

Ötən ilin fevralında qaldırılan iddiadan sonra Azərbaycan iş üzrə fəaliyyətini sistemli şəkildə davam etdirib. Belə ki, Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin noyabrın 20-də yaydığı məlumata görə, Azərbaycan hökuməti Enerji Xartiyası Müqaviləsi çərçivəsində və beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq, Haaqada yerləşən Daimi Arbitraj Məhkəməsinə ölkəmizin enerji resursları üzərində suveren hüquqlarının Ermənistan tərəfindən çoxsaylı pozuntuların təfərrüatlarını əks etdirən əsas iddia sənədini təqdim edib. Bildirilib ki, bu iddia sənədi, 2023-cü il fevralın 27-də Azərbaycanın Ermənistana "Arbitraj haqqında Bildiriş" göndərdiyi zaman başlamış beynəlxalq məhkəmə prosesi çərçivəsində son mərhələdir. Arbitraj məhkəməsi 2023-cü il sentyabrın 8-də təsis edilib və Azərbaycanla Ermənistan arasında ilk prosessual görüş bu il yanvarın 12-də keçirilib.

"Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 30 ilə yaxın qanunsuz işğalı zamanı Azərbaycanın bu ərazilərdə öz enerji resurslarına çıxışına və ya onların inkişaf etdirilməsinə mane olub. Əksinə, Ermənistan həmin resurslardan öz mənfəəti üçün istifadə edib. Ermənistanın beynəlxalq hüququn normalarının pozma halları arasında xüsusilə, onun onilliklər ərzində Azərbaycanın əhəmiyyətli bərpaolunan enerji layihələrinə çıxışına və ya onlardan faydalanmasına icazə verməkdən imtina etməsini qeyd etmək olar. Bunlara əvvəllər işğal olunmuş Ağdərə rayonundakı Sərsəng Su Anbarında yerləşən Tərtər Su Elektrik Stansiyası, İranla sərhəddə, Azərbaycanın vaxtilə işğal olunmuş Cəbrayıl rayonunda yerləşən Xudafərin və Qız Qalası su elektrik stansiyaları layihələri, həmçinin əvvəllər istifadə olunmamış enerji potensialı, hidroenergetika daxil olmaqla bərpaolunan enerji mənbələri, habelə digər resurslar daxildir",-deyə məlumatda qeyd olunub.



**Təzminatın məbləği milyardlarla dollar səviyyəsində ölçülür**

Rəsmi İrəvan işğal dövründə Tərtər Su Elektrik Stansiyasını istismar edən qurumları qanunsuz lisenziyalaşdırıb, bu enerji mənbəyini öz daxili elektrik şəbəkəsi ilə əlaqələndirib və əlavə enerjini daxili enerji istehlakı üçün Ermənistana yönləndirib. Bundan əlavə, Ermənistan Azərbaycanın Xudafərin və Qız Qalası layihə sahələrinə girişinə mane olmaqla bu mühüm hidroenergetika layihələrinin tamamlanmasını 30 il gecikdirib və ölkəmizin bərpaolunan enerji sektorunun inkişafına maneçilik törədib. Azərbaycan, öz enerji resursları üzərində suveren hüquqlarının Ermənistan tərəfindən pozulması, o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji mənbələrinin qanunsuz istismarına və zərər vurulmasına görə təzminat tələb olunması fəaliyyətini davam edəcək.

Beləliklə, Ermənistanın işğal dövründə respublikamıza vurduğu ziyan milyardlarla dollar səviyyəsində ölçülür. Bu proses üzrə təzminatın məbləği də kifayət qədər yüksək olmalıdır.



# Zəfərlər partiyası!

## YAP-ın təsis konfransından 32 il ötür...

**Tarixin bu günündə - 21 noyabr 1992-ci ildə ölkəmizdə aparıcı siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının (YAP) təsis konfransı keçirilib. Həmin tarixdən artıq 32 il ötür. YAP-ın siyasi fəaliyyətdə keçdiyi yol adi olmayıb. Yeni Azərbaycan Partiyasını fərqləndirən ən mühüm məqamlardan biri odur ki, bu partiya yarandığı vaxtdan cəmi altı ay sonra ölkənin hakim partiyasına çevrilib. Bu da dünya tarixində analoqu olmayan bir haldır. Yeni Azərbaycan Partiyası bir qrup ziyalının təşəbbüsü və fəal iştirakı ilə yaranıb. Azərbaycanın taleyini düşünən həmin insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış ediblər və bu məqsədlə xalqın sınanmış lideri Heydər Əliyevin ətrafında birləşiblər. Xalqın Heydər Əliyevə inamı və ümidi yeni yaranan siyasi təsisatın qısa müddətdə ümumxalq partiyasına çevrilməsini və hakimiyyətə gəlməsini şərtləndirən əsas amil olub.**

### Azərbaycan tarixinin çox çətin dönəmində yaranan partiya

İş elə gətirib ki, ötən əsrin doxsanıncı illərinin əvvəllərində XX yüzillikdə ikinci dəfə öz müstəqilliyini elan edən Azərbaycan həyatın bütün sahələrində böhran kimi səciyyələndirilən ağır çətinliklərlə üz-üzə qalıb. Dövlət idarəçiliyi iflic olmuşdu. İqtisadiyyat tamam çökmüşdü. Sosial sfera, əhalinin gün-güzəranı dözülməz dərəcədə ağır idi. Qeyri-legitim yolla 1992-ci ilin yazında hakimiyyətə gələn AXC - "Müsavat" iqtidarı cəmi bir il ərzində apardığı naşı siyasəti ilə ölkəni xaos, hərc-mərclik girdabına salmışdı. Ermənistanın işğalının genişlənməsi ilə yanaşı, həm də respublikada vətəndaş qarşıdurması təhlükəsi yaranmışdı. Müstəqilliyimizin itirilməsi tam real idi. Vəziyyət sağlam qüvvələri, ziyalıları narahat edirdi. Onlar çıxış yolunu Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə gəlməsində görürdülər. Beləliklə, 91 nəfər ziyalı siyasi fəaliyyət meydanına atılacaq Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verməsi üçün 1992-ci il oktyabrın 16-da o dövrdə Naxçıvanda yaşayıb çalışan Heydər Əliyevə müraciət etdi. Bu sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər" - deyə Heydər Əliyev ziyalıların tarixli müraciətinə cavabında vurğulayıb.

Yeni Azərbaycan Partiyasının təsis konfransı yuxarıda qeyd olunan tarixdə Naxçıvanda ölkəmizin bütün regionlarını təmsil edən və 550 nəfərdən ibarət olan təşəbbüs qrupunun iştirakı ilə keçirilib. Təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Nizamnaməsi və Proqramı qəbul edilib. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçilib.

### YAP Sədri Heydər Əliyevin xilaskarlıq missiyası

Müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük missiya götürən Yeni Azərbaycan Partiyası yarandıqdan sonra Heydər Əliyev qısa zamanda YAP-ı inkişaf etdirdi, Özünün dediyi kimi onu "dünənin, bu günün və sabahın partiyası" səviyyəsinə yüksəltdi. Yeni Azərbaycan Partiyasının Heydər Əliyev tərəfindən müəyyənləşdirilən fəaliyyət proqramında Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi cəmiyyət quruculuğu, əmin-amanlığa, ictimai-siyasi sabitliyə, milli həmrəyliyə, güclü və sosialyönümlü iqtisadiyyat quruculuğuna nail olunması, respublikanın beynəlxalq nüfuzunun artırılması kimi mühüm məqamlar yer alırdı. Bu ideyalar bütün cəmiyyət tərəfindən dəstəkləndi və qısa müddətdə ölkənin əksər bölgələrində Yeni Azərbaycan Partiyasının yerli təşkilatları formalaşdı. 1993-cü ilin yayında artıq bütün xalq YAP Sədri Heydər Əliyevin Azərbaycanın siyasi hakimiyyətinə qayıtmasını tələb edirdi. Həmin dövrün çətinliklərinə yuxarıda qısa nəzər saldıq. Başqası olsaydı, həmin xaotik vəziyyətdə həyatını və karyerasını təhlükəyə atmaqdan çəkinərək suların durulmasını gözləyərdi. Ancaq söhbət Heydər Əliyevdən gedirdi. Çətinliklərlə üzləşən xalqı Ona üz tutmuşdu, güvənmişdi. O, xalqın güvənini, inamını qırmağı Özünə rəva görə bilməzdi və bilmədi də. Bakıya gəlib respublikanın idarəçilik sükanının arxasına keçməyə razılıq verdi. Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bir qədər sonra isə O, Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Və nəhayət, 1993-cü il 3 oktyabr tarixində ölkədə keçirilən prezident seçkilərində inamlı qələbə qazandı. YAP Sədri, Prezident Heydər Əliyev 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək dövlət başçısı kimi fəaliyyətə başladı.

Heydər Əliyev bütün varlığı ilə andına sadiq qaldı. O, vaxt itirmədən Azərbaycanın sabahı, müstəqilliyimizin əbədiyaşarlığı üçün müstəsna önəm daşıyan böyük işlərin təməlini qoydu. Heydər Əliyev müstəqilliyimizi qorumaqla, ölkəni sabitliyə və inkişafa istiqamətləndirməklə böyük tarixi missiya yerinə yetirmiş oldu.





### Siyasi kursun varisliyi

Siyasi kursunu tez-tez dəyişən dövlətlərin təcrübəsi heç də arzuedilən deyil. Belə ölkələrin tarixində adətən geridönüşlər, inkişafda ləngimələr qaçılmaz hala gəlir. Azərbaycanın xoşbəxtliyi həm də ondadır ki, xalqımız 2003-cü ildə Heydər Əliyev kursunun layiqli davamçısı İlham Əliyevi ölkə Prezidenti seçib. Azərbaycanın idarəçilik sükanının arxasına keçən İlham Əliyev andiçmə mərasimində söylədiyi nitqində Heydər Əliyev siyasi xəttinə sadiq qalacağına vəd verdi və ötən dövrdə biz bu vədin tam həyata keçirildiyinin şahidi olmuşuq.

YAP 2005-ci ildən İlham Əliyevin liderliyi ilə fəaliyyət göstərir. Partiyanın 2005-ci il 26 mart tarixində keçirilmiş III qurultayında YAP-ın yeni Sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev seçilib. Siyasi kursun varisliyinin təmin edilməsinin nəticəsidir ki, Azərbaycanda davamlı inkişaf təmin edilir, ölkəmiz hədəflərinə doğru inamlı addımlar atır. YAP Sədri, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal faktına son qoyulması, ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi son 200 illik tariximizdə xalqımızın qazandığı ən böyük zəfərlərdir.

### Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi

Müstəqil Azərbaycanın qazandığı möhtəşəm uğurlar hakim siyasi qüvvə olan YAP-ın fəaliyyəti ilə bilavasitə bağlıdır. Zamanında Heydər Əliyevin rəhbərliyi ilə yaranan partiya ötən illər ərzində ölkəmizdə siyasi sabitliyin və davamlı inkişafın təminatçısı kimi çıxış edib. Eyni zamanda, qısa müddət ərzində ümumxalq partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyası yarandıqdan bu günə qədər çox böyük, şərəfli, uğurlu yol keçib, böyüyüb, möhkəmlənib. YAP müxalifət partiyası kimi yaransa da, onun hakimiyyətə münasibətdə tutduğu mövqe konstruktiv xarakter daşıyırdı. Bu, digər siyasi partiyalar üçün bir örnəkdir. Bəli, ayrı-ayrı siyasi qüvvələr hakim partiya ilə rəqabət apara bilərlər. Ancaq bu mübarizə heç bir halda ümummilli ideyalara, qarşıya qoyulan hədəflərə xələl gətirməməlidir. YAP lap əvvəldən özünün konstruktiv yanaşmaları ilə bunun gözəl nümunəsini təqdim edib.

Ötən 32 ildə YAP daha da böyüyərək ölkənin bütün sosial təbəqələrini əhatə edən bir partiyaya çevrilib. Partiyanın sıralarının genişlənməsi - hazırda YAP-ın 730 354 nəfər üzvü var - bunu əyani şəkildə təsdiqləyir. YAP ötən dövr ərzində ölkədə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində inamlı qələbələr qazanıb. Bu baxımdan 2024-cü ildə müstəqillik tariximizdə ilk dəfə ölkənin bütün ərazisində keçirilən prezident və parlament seçkiləri də istisna olmadı. Yaxın vaxtlarda isə işğaldan azad edilmiş ərazilərimiz də daxil olmaqla ölkə ərazisində yerli özünüidarəetmə orqanlarının yaradılması məqsədilə bələdiyyə seçkiləri keçiriləcək. Şübhə yoxdur ki, Yeni Azərbaycan Partiyasının təmsilçiləri bələdiyyə seçkilərində də böyük çoxluqla xalqın inamını qazanacaq. "Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, həm də Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Yeni Azərbaycan Partiyası bundan sonra da bütün ölkəmizdə gedən proseslərin mərkəzində olacaq" - deyə Prezident İlham Əliyev YAP-ın VII qurultayında söylədiyi nitqində vurğulayıb.

### VII qurultay - YAP-ın inkişafında yeni mərhələ

2021-ci il 5 mart tarixində YAP-ın VII qurultayı keçirilib. Həmin qurultayda aparılan müzakirələrə və alınan qərarlara, müəyyənləşdirilən hədəflərə əsaslanaraq YAP-ın keyfiyyətcə yeni bir inkişaf mərhələsinə yüksəldiyini deyə bilərik. Qurultayda qəbul edilmiş qərar əsasında Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsi, 40 nəfər tərkibdə İdarə Heyəti, 13 nəfərdən ibarət Təftiş Komissiyası və yeni qurum olaraq YAP-ın Veteranlar Şurasının 35 nəfərlik tərkibi təsdiq edilib. Partiyanın yeni Nizamnaməsinə uyğun olaraq, partiyanın Sədri İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-ci il 5 mart tarixində Mehriban xanım Əliyeva partiya Sədrinin birinci müavini təyin edilib. Sözügedən təyinat yüksək etimadın və Azərbaycanın dövlət siyasətində qadına ayrılan xüsusi diqqətin təcəssümüdür. Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının fəal ictimai-siyasi, vətəndaş və peşəkar dövlət xadimi obrazı formalaşıb. Onun Birinci vitse-prezident və Heydər Əliyev Fondunun rəhbəri kimi səmərəli fəaliyyəti Azərbaycanın dövlət idarəçiliyinə güclü impuls verir, xalqın iqtidara olan inamını daha da artırır. Mehriban xanım Əliyevanın təşəbbüsü və fəal səyləri sayəsində həyata vəsiqə alan müxtəlif sosial layihələr cəmiyyətdə bir qayda olaraq təqdir edilir, yüksək vətəndaş məmnunluğu yaradır.

Yeni Azərbaycan Partiyası ölkəmizdə milli birlik uğrunda yeni səhifə açıb. YAP partiyalararası siyasi dialoqu davamlı olaraq stimullaşdırır. Siyasi dialoqun inkişafı dövlət siyasətinin prioritet fəaliyyət istiqamətlərindən biridir. Ölkəmizdə aparılan siyasi dialoq təcrübəsi bir qayda olaraq YAP-ın təşəbbüsləri ilə zənginləşir. VII qurultayda qəbul olunmuş qərarlar partiyanın "iqtidar-xalq" modelinin real işə düşdüyünü, milli həmrəyliyin yeni inkişaf mərhələsinin başlandığını nümayiş etdirdi.

*Mübariz ABDULLAYEV*

# Qərəzli, siyasiləşdirilmiş və mandatından kənara çıxan "Beşinci Rəy"

## Qərbi Azərbaycan İcması AŞ-nın Nazirlər Komitəsindən ölkəmizə qarşı siyasi oyunlara son qoymağı tələb edib

**Hazırda beynəlxalq münasibətlər sistemində dərin böhran mövcuddur. Bu gün dünyada beynəlxalq nizam pozulub, beynəlxalq hüquq normaları işləmir. Belə olan halda bir sıra hegemon dövlətlər digər xalqlara münasibətdə öz maraqları baxımından yanaşırlar. Qərbin və onun təsir dairəsində olan beynəlxalq təşkilatların qeyri-standart və geosiyasi ambisiyalara söykənən maraqları da dünyada ciddi təhdidlər yaradır. Həmin dairələrin yanaşmasında özünü göstərən başlıca tendensiyalardan biri də ikili standartlara əsaslanan mövqedir.**

### Avropa Şurası niyə ermənipərəst mövqe tutur?

Məlumdur ki, ərazi bütövlüyünü və suverenliyini öz gücünə bərpa edən Azərbaycan dövləti Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb. Bu amil həm də dövlətimizin beynəlxalq münasibətlər sistemində nüfuzunu və mövqelərini gücləndirir. Təəssüf doğruran hal odur ki, Azərbaycan BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Qərbin təsir dairəsində olan beynəlxalq təşkilatlar ölkəmizə qarşı aqressiv münasibət sərgiləyirlər ki, bu da ikili standartların və riyakarlığın pik həddidir. Bu baxımdan, Avropa Şurası və onun müxtəlif strukturları dəfələrlə ölkəmizə qarşı əsassız və qeyri-obyektiv qətnamələr qəbul edib.

Əslində, Azərbaycanın xarici siyasətində beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq önəmli yer tutur. Bu fakt beynəlxalq müstəvidə müsbət dəyərləndirilir. Bu baxımdan, Avropa Şurası da istisna olmayıb. Azərbaycanın nümayəndə heyəti hər zaman AŞPA-nın işində həmişə fəal iştirak edib, müzakirələrə çıxarılan məsələlərə öz münasibətini bildirib, deputatlarımız qurumun komitə sədrləri, məruzəçiləri qismində çalışıblar. Ən əsas məsələ bu beynəlxalq tribunadan Ermənistanın işğalçılıq siyasətinin ifşa olunması olub. Lakin burada hər zaman Avropa parlamentarilərinin ikili standartları ilə üzləşmişik. 30 il ərzində Avropa Şurası Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı heç bir tədbir görməyib. Halbuki, bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına bilərdi. 2001-ci ildə Azərbaycan bu təşkilata üzv olarkən onun Ermənistanın işğalçı siyasətinə qarşı ciddi addımlar atacağına ümid edirdi. Lakin ötən dövrün təcrübəsi göstərir ki, ermənipərəst, islamofob qüvvələr bu təşkilatdan daim Azərbaycana qarşı vasitə kimi istifadə ediblər.



### 30 il susan Avropa Şurası...

Avropa Şurası nəinki Ermənistanı işğalçı siyasətini tanımadı, əksinə erməni lobbisinin maraqlarına uyğun olaraq ölkəmizə qarşı müxtəlif vaxtlarda qərəzli qətnamələr qəbul etdi. Hansı ki, Avropa Şurasının əsas meyarı insan hüquqlarının qorunmasıdır. Lakin Ermənistanın işğalçı siyasəti nəticəsində yüz minlərlə azərbaycanlının doğma yurdlarından qaçqın və məcburi köçkün düşməsini bu təşkilat görməzdən gəldi. Bütün bunların fonunda AŞPA cari ilin yanvar ayında Azərbaycanın guya Qarabağda erməniləri etnik təmizləməyə məruz qoyduğunu iddia edərək qətnamə qəbul edib, eləcə də Azərbaycan nümayəndə heyəti əsassız olaraq səsvermə hüququndan məhrum olunub. Bu da Azərbaycana qarşı ikili standartların bariz nümunəsidir. AŞPA-nın sözügedən qərəzli addımına cavab olaraq Azərbaycan nümayəndə heyəti qurumdakı fəaliyyətini dondurub.

Qeyd edək ki, Avropa Şurasının ölkəmizə qarşı qərəzli mövqeyi COP29 ərəfəsində və bu tədbirin keçirildiyi günlərdə də davam etməkdədir. Bir neçə gün öncə Avropa Şurasının Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasının Azərbaycan tərəfindən icrasına dair Məşvərət Komitəsinin qərəzli, siyasiləşdirilmiş və mandatından kənara çıxan Beşinci Rəyi də bunun göstəricisidir. Azərbaycanın Xarici İşlər Nazirliyi bu "sənədi" tənqid edib. Eyni zamanda, Qərbi Azərbaycan İcması da bəyanat verərək Avropa Şurasının Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasının Məşvərət Komitəsinin Azərbaycanla bağlı Beşinci Rəyini qınayıb.

### Qərbi Azərbaycan İcması etiraz edir

Bəyanatda qeyd olunub ki, Ermənistan tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə, mədəni irsin dağıdılması və qayıdış hüququnun pozulmasına səssiz qalmış Avropa Şurasının sözügedən qurumu öz rəyi ilə Azərbaycana qarşı şər və böhtandan ibarət mövqe sərgiləyir və azərbaycanlıları deportasiyaya məruz qoyaraq monoetnik ölkəyə çevrilmiş Ermənistana münasibətdə dəstəkləyici davranış nümayiş etdirir. Xüsusilə, Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdış hüququnu görməzdən gələn Avropa Şurasının bu qurumunun, indi Qarabağdan köçmüş ermənilərin qayıdış hüququndan danışması etnik və dini ayrı-seçkiliyin ən bariz göstəricisidir.



Xatırladaq ki, Qərbi Azərbaycan İcmasının Ermənistanın insan hüquqları sahəsində Avropa Şurası çərçivəsində, o cümlədən Avropa İnsan Hüquqları Konvensiyası və Milli Azlıqların Qorunması üzrə Çərçivə Konvensiyasından irəli gələn öhdəliklərinin yerinə yetirilməsini monitorinq predmetinə çevirmək barədə Şuraya dəfələrlə etdiyi müraciətlər cavabsız qalıb. Bundan başqa, rəyin məhz indi açıqlanması onu göstərir ki, Məşvərət Komitəsi "Freedom House" kimi qondarma qurumlar, Frank Pallone kimi korrupsioner siyasətçilər kimi COP29 zamanı daha da qızışan anti-Azərbaycan kampaniyasına qoşulub.

Bütün bunlar isə ona dəlalət edir ki, başda Parlament Assambleyası olmaqla, Avropa Şurasının bir sıra qurumları bəzi dairələrin əlində Azərbaycana qarşı siyasi oyunlar üçün alətə çevrilib. Qərbi Azərbaycan İcması Avropa Şurasının Nazirlər Komitəsindən, sözügedən məşvərətçi qurumun Azərbaycana qarşı qəbuledilməz siyasi oyunlarına, etnik və dini ayrı-seçkiliyinə son qoymağı tələb edib.

*Nardar BAYRAMLI*

# 13-cü Ümumdünya Şəhərsalma Forumu Azərbaycana həvalə edilib

## Azərbaycan və UN-HABITAT arasında əməkdaşlıq formatı şəhərlərin davamlı inkişafında uğurlu platforma rolunu oynayır

**Noyabrın 19-da Prezident Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyev COP29 çərçivəsində ölkəmizdə səfərdə olan Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Anaklaudia Rossbaxın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Azərbaycan ilə UN-HABITAT arasında faydalı əməkdaşlıqdan, bu çərçivədə 2022-ci ildə Ağdam şəhərində, 2023-cü ildə Zəngilanda Milli Şəhərsalma forumlarının və Bakıda “Ümumdünya Məskunlaşma Günü” tədbirlərinin uğurlarından bəhs olunub. Məskunlaşma mövzusu COP29-un gündəliyində də prioritetlər sırasında yer almaqla Azərbaycan və UN-HABITAT arasında əməkdaşlığın mühüm göstəricisi olduğunu, eyni zamanda, tərəflərin urbanizasiyaya xüsusi həssas münasibətini təsdiqləyir.**

### “Yaşıl şəhərsalma”da UN-HABITAT-ın tövsiyələri

Qlobal urbanizasiyanın artdığı şəraitdə şəhərlərin dayanıqlı və təhlükəsiz inkişafını təmin etmək Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlərin əsas hədəflərindən birinə çevrilib. Bu sahədə BMT-nin aparıcı təsisatı olan Məskunlaşma Proqramı ilə sıx əməkdaşlıq edən Azərbaycan bir sıra tədbirlər həyata keçirərək şəhərsalma ilə bağlı yenilikləri tətbiq edib.

Müasir çağırışlar dövründə UN-HABITAT-ın əsas tövsiyə və kriteriyalarından biri şəhərlərdə ekoloji və təmiz tikinti normativlərinin tətbiqidir. Məqsəd dünya ölkələrində aşağı karbonlu enerjiyə keçid çərçivəsində “yaşıl texnologiyalar”ın geniş tətbiqi yolu ilə sənaye layihələrinin sayını artırmaq, “yaşıl şəhər” və ya “yaşıl tikinti” layihələrini genişləndirməkdir. UN-HABITAT-ın bu çağırışlarına qoşulan bir çox ölkədə “yaşıl tikinti” texnologiyalarından istifadə geniş vüsət alıb və hazırda daha da təkmilləşdirilir. Mütəxəssislərin hesablamalarına görə, tikinti sektorunun ətraf mühitə təsirləri təxminən avtonəqliyyat vasitələrinin vurduğu zərərə yaxındır. İnşaat sənayesində istifadə olunan texnologiyaların böyük bir qismi ətraf mühitə yanacaq emissiyalarında rol oynayır. Binaların tikintisi zamanı bu cür zərərli emissiyaların təsiri 20 faiz, sonrakı infrastruktur, təminat və enerji təchizatı zamanı isə 40 faiz təşkil edir.

2023-cü ildə qaz emissiyalarının payı 1,3 faiz artıb. Əgər biz 1,5 dərəcə hədəfinə çatmaq istəyiriksə, bu ildən başlayaraq 2030-cu ilə qədər qaz emissiyalarının payını 41 faiz aşağı salmalıyıq. BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersenin sözlərinə görə, təkcə dünyada 25 meqapolis şəhər qaz emissiyalarının buraxılmasında 52 faiz paya malikdir. Bu problemi həll etmək yeni nəqliyyat, elektromobil və şəhər konsepsiyaları tətbiq olunmalıdır. Bunun ən optimal yollarından biri “yaşıl şəhər” layihələrinə keçidi sürətləndirməkdir.



Müasir şəhərsalmada “yaşıl texnologiyaların” tətbiqi olduqca böyükhəcmli vəsaitlər tələb edir və bu həllərə çatmaq üçün qlobal maliyyə institutlarının dəstəyinə ehtiyac duyulur. “Yaşıl şəhərsalma” hazırda beynəlxalq səviyyədə iqlim maliyyələşməsi portfelində duran ən əsas məsələlərdən biridir. Bu mövzu ötən gün COP29 çərçivəsində keçirilən Şəhərsalma və iqlim dəyişikliyi üzrə yüksəksəviyyəli nazirlərin görüşü zamanı da aktual baxış kimi diqqətdə olub. Tədbirdə çıxış edən COP29-un Prezidenti Muxtar Babayev bildirib ki, şəhərlərdə infrastrukturun müasirləşdirilməsinə, enerji səmərəli binalara və dayanıqlı nəqliyyat sistemlərinə sərmayəni artırmaq üçün innovativ maliyyələşmə mexanizmlərinə və daha güclü tərəfdaşlıqlara ehtiyac var. Bu, əməkdaşlıq şəhərsalmanın müasir “yaşıl texnologiyalar” vasitəsilə qurulması nəticəsində iqlim risklərinin aradan qaldırılmasında mühüm rol oynamaqla yanaşı, iqtisadi artım imkanlarının, iş yerlərinin yaradılması və şəhər əhalisi üçün həyat keyfiyyətinin yaxşılaşdırılması baxımından da mühüm əhəmiyyət kəsb edir.

### “Yaşıl binalar” üçün iqlim maliyyəsi də həll olunur

Ona görə də iqlim ailəsi gələcəyə baxaraq urbanizasiya sahəsində əməkdaşlığı dərinləşdirmək və daha iddialı hədəflərə çatmaq üçün bütün milli hökumətləri, özəl və ictimai tərəfdaşları bu məqsədlər uğrunda birləşdirməyə çalışacaq, eləcə də maliyyə institutları ilə inteqrasiyanı artıracaq.

Yeri gəlmişkən, qeyd edək ki, urbanizasiya ilə bağlı maliyyə ehtiyaclarının təmin edilməsi üçün Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə Beynəlxalq Maliyyə Korporasiyası arasında anlaşma memorandumu imzalanıb. Sənədə əsasən, Azərbaycanda “yaşıl binalar”ın inkişafına dair Yol xəritəsi hazırlanacaq. Əməkdaşlıq prioritetlərinə əsasən, BMK ekoloji və təmiz tikinti sahəsində tələb olunan zəruri resurslar və icra mexanizmləri üzrə öz köməyini göstərəcək. Həmçinin, Asiya İnkişaf Bankı və Beynəlxalq Valyuta Fondu da “yaşıl şəhər” və “yaşıl tikinti” sektorlarına dəstək verəcəyini bildirib.

### COP29-un hədəflərindən biri - “Dayanıqlı Yaşıl Tikinti Bəyannaməsi”

“Yaşıl tikinti”yə keçid qlobal iqlim alyansının fəal üzvlərindən biri kimi Azərbaycan üçün də gündəlikdə duran əsas məsələlərdən biridir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də 5-ci prioritet istiqamət “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” kimi müəyyən olunub. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan “yaşıl texnologiyalar”ın tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub. Həmin tədbirlərdən biri inşaat sənayesi sektorunun ətraf mühitə zərərlərinin azaldılmasıdır. Bu məqsədlə Azərbaycan hökuməti də “yaşıl şəhər”lərin inşası layihələrinə xüsusi önəm verərək beynəlxalq qurumlarla, o cümlədən UN-HABITAT-la əməkdaşlıq etməkdədir. Həmin çərçivəyə əsasən, tikinti şirkətləri, sənaye avadanlıqları təchizatçıları və maliyyə-bank qurumları da bu istiqamətdə birgə fəaliyyət niyyətlərini bəyan edərək “yaşıl hədəf”lər naminə qarşılıqlı əməkdaşlıq sxemlərini müəyyənləşdirib. İlk müsbət adımlardan biri kimi 2024-cü ilin iyul ayında Azərbaycanda fəaliyyət göstərən 11 tikinti və COP29 Təşkilat Komitəsinin bir neçə üzvü “Dayanıqlı Yaşıl Tikinti Bəyannaməsi” imzalayıb.

COP29 çərçivəsində keçirilən Şəhərsalma və iqlim dəyişikliyi üzrə yüksəksəviyyəli nazirlərin görüşü zamanı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bildirib ki, şəhərlərin gələcək əməkdaşlıq, innovasiya və qarşılıqlı öhdəlik əsasında formalaşması üçün Bakı Davamlılıq Koalisiyası təsis edilib. Koalisiya təbiət əsaslı şəhərsalma yanaşması və güclü əməkdaşlıq vasitəsilə üçün Çoxtərəfli Fəaliyyət Yolları (MAP) təşəbbüsü konsepsiyalarını həyata keçirməyə imkan verəcək.




### UN-HABITAT-ın azad ərazilərdə müasir şəhər quruculuğuna dəstəyi

UN-HABITAT işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşmasının təmin edilməsi istiqamətində də Azərbaycanla əməkdaşlıqda maraqlıdır. 2022-ci il oktyabrın 5-də

UN-HABITAT və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə Ağdamda “Dayanıqlı İnkişaf Məqsədləri” və “Yeni Şəhər Gündəliyi” - postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi” mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumu keçirilməsi BMT-nin ali qurumlardan birinin azad ərazilərdə yeni urbanizasiyaya xüsusi diqqətinin göstəricisi hesab oluna bilər. 44 ölkədən 130-dan çox nümayəndənin qatıldığı forum azad ərazilərdə böhranların aradan qaldırılması və yeni şəhərsalma baxımından uğurlu platforma kimi yadda qalıb. Eləcə də 2023-cü il sentyabrın 29-da BMT-nin Məskunlaşma Proqramı ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən “Şəhərsalma Həftəsi 2023” tədbirləri çərçivəsində Zəngilanda “Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi” mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumu bu bölgədə davamlı şəkildə “ağıllı şəhərlərin” qurulması ilə bağlı strategiyaların həyata keçirilməsində yeni imkanlar yaradıb.

Təsadüfi deyildir ki, işğaldan azad edilmiş ərazilərdə müasir şəhər quruculuğu və bərpa işləri BMT-nin “Dayanıqlı inkişaf məqsədləri” təşəbbüsünün prinsipləri əsasında həyata keçirilir.

Göründüyü kimi Azərbaycan ilə UN-HABITAT arasında səmərəli əməkdaşlıq nümunəvi platformaya çevrilməkdədir və ölkəmizə inam və etimad daha da artır. Bu baxımdan təşkilat ən mötəbər tədbirlərini ölkəmizdə təşkil etməyə üstünlük verir. Bunun təzahürlərindən biri kimi 2026-cı ilin mayında BMT-nin ən yüksək səviyyəli tədbirlərindən biri olan 13-cü Ümumdünya Şəhərsalma Forumu Azərbaycana həvalə edilib.

Azərbaycan və UN-HABITAT arasında möhkəm əməkdaşlıq formatı gələcək inkişafın və rifahın əsas qüvvəsi olan şəhərlərin davamlı inkişafında yeni meyar və prinsipləri tətbiq etmək, eyni zamanda dünya ölkələri ilə bu sahədə fəal əməkdaşlığı əlaqələndirmək, qlobal sülhə, təhlükəsizliyə mühüm töhfə vermək baxımından uğurlu platforma rolunu oynayacaq.

***ELBRUS CƏFƏRLİ***

# Fermerlər üçün Bakı Harmoniyası...

## İqlim Təşəbbüsü təmiz ekoloji ərzaq ekosistemi üzrə beynəlxalq əlaqələri koordinasiya edəcək

**COP29 sammiti çərçivəsində “Fermerlər üçün Bakı Harmoniya İqlim Təşəbbüsünün işə salınması: Fermerlərin iqlim dəyişikliyinə qarşı dayanıqlığının artırılması üçün imkanların genişləndirilməsi” tədbiri keçirilib. COP29 Sədrliyi, Kənd Təsərrüfatı Nazirliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birgə əməkdaşlıq nəticəsində həyata keçirilən tədbirdə qlobal miqyasda iqlim dəyişikliklərinin qida təhlükəsizliyi, kənd təsərrüfatı və su resurslarına təsiri müzakirə edilib.**

### İqlim hədəfi həm də “yaşıl kənd təsərrüfatı”nı qurmaqdır

Qlobal iqlim dəyişiklikləri hazırda ən çox aqrar sahəyə zərər vurur. FAO-nun Avropa və Mərkəzi Asiya üzrə Regional nümayəndəsi Viorel Gutunun sözlərinə görə, da fermerlər, kənd təsərrüfatının istehsalı ilə məşğul olanlar iqlim dəyişikliyindən ən çox zərər çəkənlərdir, onlar iqlim dəyişikliyinin təsirlərini birbaşa öz üzərlərində hiss edirlər. Təsirlərə yüksək temperatur, proqnozlaşdırılmamış leysanlar, torpağın deqredasiyası və su qıtlığı daxildir ki, bu da fermerl icmasına ciddi ziyan vurur. Buna görə də, dünya ölkələri aqrar sahədə yeni modellər, iqlimə davamlı isteshal-emal zəncirləri qurmağa çalışır. Onlardan ən müasir aqrar inkişaf modeli olan “yaşıl kənd təsərrüfatı”dır.

“Yaşıl kənd təsərrüfatı” təbii ehtiyatların, biomüxtəlifliyin və ekosistem xidmətlərinin effektiv idarə olunmasını, eyni zamanda, cari və gələcək çağırışlara cavab verə bilən davamlı və dayanıqlı aqroekosistemlərin yaradılmasıdır ki, hazırda əksər ölkələr investisiyaları bu çərçivəyə əsasən müəyyən edir. Xüsusilə “yaşıl kənd təsərrüfatı”na keçid COP29-un proqramında yer əsas mövzulardandır. COP29 üçün 14 qlobal təşəbbüsündən biri kənd təsərrüfatının dayanıqlı inkişafında yerli və qlobal səviyyədə mübarizə metodlarının təşviqidir.

### Bank sistemi aqrar sahəyə dəstək verəcək

Ölkəmiz bu meyilləri əsas götürərək “yaşıl kənd təsərrüfatı” ekositeminin möhkəmləndirmək üçün beynəlxalq təşkilatlar, o cümlədən FAO və qabaqcıl aqrar ölkələrlə əməkdaşlığı gücləndirmək niyyətindədir. Aqrar sektorun iqlim təsirlərinin qarşısını almaqda üzləşdiyi əsas çətinliklərdən buiri dayanıqlı maliyyə çatışmazlığı ilə bağlıdır. Bu məqsədlə təminatlı maliyyə resurslarının, eləcə də xarici sərmayələrin kənd təsərrüfatı sahəsinə axınını təşviq etmək üçün Azərbaycan aparıcı investisiya şirkətləri və bank sektoru ilə əməkdaşlığı artırmağı nəzərdə tutur. Bir neçə beynəlxalq qurumla ilkin razılaşmaya əsasən, su təchizatının yaxşılaşdırılması, müasir aqrotexniki və iqlim dostu təcrübəsindən istifadənin tətbiqi üzrə layihələr icra olunacaq. Həmçinin bank və maliyyə sektoru ilə bu istiqamətdə əməkdaşlıq gücləndiriləcək. Bank sektorunun qarşıdakı dövrə aid hədəfləri də “yaşıl kənd təsərrüfatı”nın inkişafına yönəlib ki, bu da aqrar hədəflərə uyğundur. Eləcə də Mərkəzi Bank tərəfindən ötən həftə təsdiqlənən “Yaşıl Taksonomiya” sənədində yaşıl və dayanıqlı keçid strategiyalarının hazırlanmasında əsas prinsiplərdən biri kənd təsərrüfatında yaşıl layihələrə dəstək verməkdir.

COP29-un Prezidenti Muxtar Babayev bildirib ki, ölkəmizdə aqrar sahə məşğulluqda mühüm rol oynayır, ümumi məşğulluğun 36 faizi kənd təsərrüfatı sahəsində cəmləşib. Müasir iqlim hədəfləri bu sahəyə də xüsusi diqqət və yanaşmaları labüdləşdirir. Aqrar sahənin “yaşıl iqtisadiyyat”a transformasiyası bütün COP ailəsi üçün mühüm prioritetlərndən biridir.



### Aqroərzaq sistemlərinin sürətli transformasiyasına keçid

Kənd təsərrüfatı naziri Məcnun Məmmədovun fikrincə, son 10 il ərzində aqroərzaq sistemləri, iqlim dəyişikliyi və maliyyə ilə əlaqəli təşəbbüslər, koalisiyalar, şəbəkələr və tərəfdaşlıqlar əhəmiyyətli dərəcədə inkişaf etsə də, daha təsirli iqlim tədbirləri həyata keçirmək və aqroərzaq sistemlərinin sürətli transformasiyasına və koordinasiyaya ehtiyac var. Kənd təsərrüfatında gözlənilən iqlim hədəflərinin qarşısını almaq üçün qlobal həmrəyliyin artırılması olduqca vacibdir. Bu baxımdan Bakı Harmoniya İqlim Təşəbbüsünə qoşulan COP ailəsi öz səylərini birləşdirməklə əsas məqsədə daha asan çata bilər. Bu platforma, həmçinin fermerlərin təcrübi biliklər əldə etməsi, rəqəmsal alətlərə çıxışı, dünyanın ən yaxşı təcrübələri və innovasiyaları ilə tanış olmasında əvəzsiz rol oynayacaq, kənd təsərrüfatını dəstəkləyən investisiyaları səfərbər etməyə imkan verəcək.

Beləliklə, Bakı Harmoniya İqlim Təşəbbüsü ərzaq və kənd təsərrüfatı sahəsində mövcud iqlim təşəbbüslərini bir platformada birləşdirmək və fermerlərə dəstək üçün əlçatan qaydalar hazırlamaq baxımından mühüm rol oynayır. Eyni zamanda, aqrar sahənin təmiz ekoloji ərzaq fazasında keçməsində beynəlxalq birliklə əlaqələrinin artmasında əlverişli imkanlar yaradacaq.

***ELBRUS***

# ABŞ konqresmenləri "erməni cəfakeşləri" rolunda

**ABŞ Konqresinin bir qrup ermənipərəst üzvü mütəmadi olaraq ölkəmizə qarşı qərəzli kampaniya aparır. Bu baxımdan, Azərbaycanda dünyanın ən mötəbər tədbiri olan COP29-un keçirilməsi onların ölkəmizə yönəlik yalan və böhtan üzərində qurulmuş təbliğatları üçün "fürsət" kimi görünür. Çünki COP29 ərəfəsində və onun keçirildiyi günlərdə beynəlxalq ictimaiyyətin diqqəti Azərbaycandadır.**

## Konqresmenlər ANCA-dan maliyyə dəstəyi alır

Xatırladaq ki, oktyabrın 3-də bir qrup konqresmen ABŞ Dövlət katibi Antoni Blinkenə məktub yazaraq Azərbaycana qarşı qəbuledilməz mövqe ifadə etmişdilər. Konqresmenlər Azərbaycanın COP29-a ev sahibliyi etməsindən istifadə edərək, Ermənistanın gündəliyinə və regionda yenidən münaqişə yaratmağa xidmət edən bütün məsələlərin, o cümlədən müharibə cinayətlərinə görə məsuliyyət daşıyanların azadlığa buraxılması kimi beynəlxalq hüquqa zidd məsələlərin irəlilədilməsinə çalışmışdılar.

Əslində, bu, Konqres tərəfindən ilk belə hal deyildi. Qeyd etdiyimiz kimi, ABŞ Konqresinin Ermənistana lobbiçilik edən üzvləri vaxtaşırı olaraq Azərbaycana qarşı qərəzli mövqe sərgiləyirlər. Həmin konqresmenlərin ABŞ-dakı erməni təşkilatı olan Amerika Erməni Milli Konqresi (ANCA) tərəfindən maliyyə dəstəyi alması hər kəsə məlumdur. Bu konqresmenlərdən Frank Pelloni və Ed Markin isə COP29 çərçivəsində Azərbaycana səfər etmişdilər. Ermənipərəst konqrersmenlər ölkəmizdə KİV-in və vətəndaş cəmiyyətinin haqlı etirazları ilə qarşılaşmışdılar. Onlar ABŞ-a qayıtdıqdan sonra isə özlərindən "erməni cəfakeşləri" obrazı yaratmağa çalışıblar. Bu da cəmiyyətimizdə etirazlara səbəb olub.



## Ombudsman: Frank Pelloni və Ed Markin yeni münaqişə ocaqlarının yaradılmasına çalışır

Belə ki, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva bildirib ki, amerikalı konqresmenlər Frank Pelloni və Ed Markinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər bir tədbirdə iştirakından sonra ölkəmizə səfərinə dair həqiqəti əks etdirməyən açıqlamaları dərin təəssüf hissi doğurur. Ombudsmanın fikrincə, konqresmenlərin Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı irəli sürdüyü iddialar onların ölkəmizə qarşı qərəzli mövqeyini bir daha nümayiş etdirir: "Həmin konqresmenlərin həqiqəti əks etdirməyən yanaşmaları əvəzinə, indiki Ermənistan ərazisindən etnik mənsubiyyətinə görə didərgin salınmış yüz minlərlə soydaşlarımızın geri qayıtmaq hüququnun təmini, həmin şəxslərin öz yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışı məsələsini heç bir ayrı-seçkiliyə yol vermədən önə çıxarmalarını gözləyərdik. Eyni zamanda, konqresmenlərə Ermənistanın ölkəmizə qarşı əsassız ərazi iddiaları ilə həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpaqlarının 20 faizinin bu ölkə tərəfindən otuz ilə yaxın müddət ərzində işğal olunduğunu, bir milyondan çox azərbaycanlının məcburi köçkünə çevrildiyini xatırlatmaq istərdik".

S.Əliyeva deyib ki, biz Frank Pelloni və Ed Markinin indiki həssas bir dövrdə regionda dayanıqlı sülhün bərqərar olunması ilə bağlı addımlar atmaq yerinə, yeni münaqişə ocaqları yaradılması istiqamətində mövqe nümayiş etdirmələrinin şahidi oluruq. Pelloninin öz çıxışında Amerika Birləşmiş Ştatlarının belə tanımadığı, legitim olmayan bir "qurumun" və onun müharibə cinayətləri törətdiklərinə görə təqsirləndirilən şəxslər olaraq istintaqa cəlb edilmiş "rəhbərinin" adını hallandırması, başqa ölkənin daxili işinə qarışması, beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərini heçə sayması "həmin konqresmen hansı siyasi dairələrə xidmət edir?" sualına cavab vermiş olur.

Ombudsman onu da qeyd edib ki, həmin konqresmenlərin Ermənistanın həyata keçirdiyi mina terrorunun mülki əhalinin, o cümlədən ahılların, qadınların və uşaqların həyatına son qoymasına, Birinci Qarabağ müharibəsindən indiyədək itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi barədə bu ölkə tərəfindən indiyədək ölkəmizə hər hansı məlumatın təqdim edilməməsinə səssiz qalması da onların qərəzli olduğunu növbəti dəfə sübut edir: "Konqresmen Pelloninin COP29 zamanı müstəqil mətbu orqanların nümayəndələri tərəfindən ona ünvanlanmış suallardan yayınmasını və tutarlı arqumentlərə cavab verə bilməməsini sonradan cəfəng iddialarla əsaslandırması onun söz və mətbuat azadlığına olan dözümsüzlüyünün bariz nümunəsidir".

S.Əliyeva ABŞ konqresmenlərinin açıq-aşkar erməni lobbisinin tapşırıqları əsasında irəli sürdükləri əsassız və qərəzli fikirlərini bir daha qınayıb, onları beynəlxalq hüquqa hörmət etməyə, milli zəmində münaqişə yaradılmasına cəhd göstərməməyə dəvət edib.

## İcma: F.Pelloni və onun kimi siyasətçilər şər-böhtan, şantaj siyasətinə üstünlük verirlər

Qərbi Azərbaycan İcması isə bəyan edib ki, ABŞ Konqresinin irqçi düşüncəli, korrupsiyaya uğramış üzvü Frank Pelloni COP29-da iştirak üçün Azərbaycana səfəri zamanı ictimaiyyətin ona qarşı haqlı və dinc etirazını yanlış istiqamətdə təqdim etməyə və ölkəmizə böhtanlar atmağa çalışır. İcmanın bəyanatında qeyd olunub ki, F.Pelloni onilliklərdir erməni lobbisi ilə qeyri-şəffaf əlaqələr quraraq Azərbaycana və regionda sülhün bərqərar olunmasına qarşı sistematik fəaliyyət göstərir. O, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü, azərbaycanlılara qarşı etnik təmizləmə, soyqırımı, kütləvi qətliam, mədəni irsin dağıdılması kimi cinayətlərini dəstəkləyib, azərbaycanlılara qarşı etnik və dini əsaslı nifrət siyasəti yürüdüb.

Bu səbəbdən Azərbaycan ictimaiyyətinin, xüsusən Ermənistanın etnik təmizləməsinə məruz qalmış şəxslərin irqçi F.Pelloniyə qarşı etiraz etməsi onların ən fundamental hüququdur. Lakin F.Pelloni dinc nümayişçilərin qarşısına çıxaraq onlardan üzr istəmək və qaldırdıqları suallara cavab vermək əvəzinə, mühafizəçilərini, aralarında qadınlar olan dinc nümayişçilərin üzərinə göndərib və onların xəsarət almasına səbəb olub.

"F.Pelloninin səfərdən sonra verdiyi bəyanatlar onun Azərbaycana nə iqlim dəyişikliyi konfransında iştirak, nə də dialoq məqsədilə gəldiyini açıq şəkildə göstərir. Onun məqsədi Azərbaycanda keçirilən və bütün dünya ölkələrinin toplaşdığı COP29-un uğurlarını qaralamaq, Azərbaycana zərbə vurmaq idi",-deyə bəyanatda vurğulanıb ki, Azərbaycan dövləti və ictimaiyyəti həmişə dialoqun tərəfdarı olub. F.Pelloni və onun kimi bəzi irqçi siyasətçilər isə əksinə həmişə dialoqdan qaçıb, şər-böhtan, şantaj siyasətinə üstünlük veriblər. Qərbi Azərbaycan İcması F.Pelloninin ucuz şoularını və onun nümunəsində bəzi Qərb dairələrində kök salmış azərbaycanofob meyilləri kəskin şəkildə qınayır, bu siyasətçilərdən regionda sülhün bərqərar olmasına maneçilik törətməməyə və Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdış hüququna hörmətlə yanaşmağı tələb edib.

***Nardar BAYRAMLI***

---

# Ətraf mühitin mühafizəsi uğrunda...

## Mühüm müzakirələr davam edir

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti üzrə hazırlanmışdır**

*Yeganə BAYRAMOVA*

Noyabr ayının 11-dən etibarən bütün dünyanın nəzəri Azərbaycana yönəlib. Məlumdur ki, ölkəmiz BMT-in ən böyük tədbirlərindən biri olan COP29-a ev sahibliyi edir. Artıq konfrans çərçivəsində bir sıra mühüm tədbirlər, o cümlədən də Liderlər Sammiti böyük uğurla baş tutub.

Paytaxtımızda dünyada aktual olan iqlim dəyişmələri ilə bağlı müzakirələr aparılır və önəmli qərarlar qəbul olunur. Qlobal istiləşmə və güclü sənaye inkişafı fonunda iqlim dəyişmələrindən bütün ölkələr təsirlənir. Bundan başqa, 21-ci əsrdə ekoloji tarazlığı qoruyub saxlamaq, təbii ehtiyatlardan səmərəli istifadə, su, torpaq və atmosferi çirklənməkdən mühafizə etmək ümumbəşəri problemə çevrilib. Bir tərəfdən dünya demoqrafik artımla "qol-boyun"dur, digər tərəfdən də qlobal istiləşmə, ozon qatının deşilməsi, təbii ehtiyatların tükənməsi kimi məsələlər ciddi narahatlıq doğurur.

Statistik rəqəmlərə əsaslanaraq söyləmək olar ki, dünyada hər il minlərlə hektar meşə və çəmənlik, bitki örtüyü ilə zəngin yaşıllıqlar məhv edilir. Meşələrin məhv olması Yer kürəsinin münbit qatı hesab olunan torpağın şoranlaşmasına, eroziyaya uğramasına, sürüşmələrin baş verməsinə səbəb olur ki, bu da böyük dağıntılar və fəlakətlərlə nəticələnir.

**Su resurslarımz 20-30 faiz azalıb**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdir müavini Rafiq Verdiyev "Su, enerji ərzaq və ekosistemlər üzrə regional əməkdaşlıq vasitəsi ilə iqlim fəaliyyətinin sürətlənməsi" mövzusundakı Dəyirmi Masada çıxış edib. Onun sözlərinə görə, iqlim dəyişikliyi nəticəsində Azərbaycanın su resursları 20-30 faiz azalıb: "Biz Qanıx çayı hövzəsində Gürcüstanla birlikdə adaptasiya planları hazırlamaq istəyirik. Hər iki ölkə bu sahədə qətiyyətlidir. Beynəlxalq qurumların da bu sahədə dəstəyi önəmlidir. Biz Gürcüstanla əməkdaşlığı genişləndirmək istəyirik".



**Son 25 ildə Bakıda istilik dalğaları 14 dəfə artıb**

"Şəhərlərdə təbiət, sağlamlıq və dayanıqlılıq" mövzusunda yüksək səviyyəli dəyirmi masada iştirak edən Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva bildirib ki, 2050-ci ilə qədər şəhərlərin əhalisi 2.5 milyard artacaq və qlobal əhalinin 68%-i şəhərlərdə yaşayacaq.

O, qeyd edib ki, qlobal istiləşmə şəhərlərdə daha tez-tez və ciddi şəkildə hiss edilən ekstremal hava hadisələri ilə müşayiət olunur:

"Sürətli urbanizasiya səbəbindən antropogen təzyiq həm təbiət, həm də insan sağlamlığı üçün əlavə risklər yaradıb. Bu, su və hava çirklənməsi, biomüxtəlifliyin itirilməsi və torpağın deqradasiyası vasitəsilə müşahidə edilib. Son onilliklərdə şəhər ərazilərinin əhalisi iqlim dəyişikliyi ilə bağlı ekoloji dəyişikliklər də daxil olmaqla bir çox qlobal problemlərə qarşı daha həssas hesab edilir. Ətraf mühitin bütün bu mənfi transformasiyaları gələcək nəsillərə təsir edəcək".

U.Tağıyeva qeyd edib ki, iqlimin istiləşməsi və istilik dalğaları şəhər əhalisinin sağlamlığı üçün daha çox risk yaradır: "Xüsusilə böyük şəhərlərdə əhali hava şəraitinə daha həssasdır. Son illərdə regionumuzda 25 m/s-dən yuxarı güclü küləklərin sayı 12 dəfə artıb. İstilik dalğaları Azərbaycanda tezləşib və Bakı şəhərində 1990-cı illərlə müqayisədə 14 dəfə artıb".

**Ətraf mühitin mühafizəsi xərcləri 2 dəfədən çox artırılır**

Parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, iqlim dəyişmələrinin qarşısının alınması sahəsində Azərbaycanın həyata keçirdiyi fəaliyyət beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir: "Azərbaycanda ətraf mühitin mühafizəsi xərcləri 2 dəfədən çox artırılır. İştirakçıların sayına və səviyyəsinə, müzakirəyə çıxarılan məsələlərin aktuallığına görə dünyada ən mötəbər tədbirlərdən biri hesab edilən COP29-un dünya ölkələrinin yekdil qərarı ilə 2024-cü ildə Azərbaycanda keçirilməsi bunun bariz nümunəsidir. Əgər 2018-ci ilin dövlət büdcəsində ətraf mühitin mühafizəsi tədbirlərinə 178,3 milyon manat (dövlət büdcəsində xüsusi çəkisi 0,77%) manat vəsait ayrılmışdısa, 2024-cü ildə bu rəqəm 376,9 milyon manat (2,1 dəfə çox və dövlət büdcəsində xüsusi çəkisi 0,95%) təşkil edir".

---

# Vergi Məcəlləsində nə, necə dəyişir?

**Son illərdə vergi qanunvericiliyinin təkmilləşdirilməsi, vergi güzəşt və tətillərinin tətbiqi ilə bağlı siyasətin növbəti ildə də davam etdirilməsi nəzərdə tutulur. Vergi güzəşt və azadolmaları büdcə, iqtisadi və sosial baxımdan səmərəlilik prinsipləri qiymətləndirilməklə, habelə nəticəyönümlü güzəşt və azadolmalar müəyyən edilməklə təsnifləşdirilib. Bu məqsədlər nəzərə alınmaqla 2025-ci ildə Vergi Məcəlləsinə təklif edilən dəyişikliklər layihəsi hökumətə təqdim olunub və müsbət rəy alaraq Milli Məclisin müzakirəsinə çıxarılıb. Vergi Məcəlləsinə dəyişikliklərin əsas mahiyyətini açıqlayan Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli Milli Məclisin İqtisadi siyasət, Sənaye və Sahibkarlıq komitəsinin iclasında bildirib ki, təşviqlər investisiya qoyuluşunu stimullaşdırmaq, uzunmüddətli dövrdə dövlətin maliyyə yükünü azaltmaq, istehlakçılar üçün tarifləri aşağı salmaq, eləcə də daxili istehsalı dəstəkləmək və digər təbbirlərin həyata keçirilməsinə yönəlib.**

## Vergi yükünün optimallaşdırılması, inzibatçılığın təkmilləşdirilməsi

Qeyd edək ki, ölkənin ali maliyyə sənədi olan 2025-ci ilin dövlət büdcəsi layihəsində gəlirlər üzrə siyasətin əsas istiqamətləri ölkənin iqtisadi inkişafını sürətləndirmək, rəqabət qabiliyyətini gücləndirmək, investisiya mühitini daha cəlbedici etmək prioritetlərinə fokuslanıb. Bu məqsədlə vergi yükünün optimallaşdırılması, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi, vergi və gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi və ekoloji təmiz nəqliyyat vasitələrinin dövriyyəsinin artırılması kimi addımların atılması planlaşdırılır.

Bu prioritetləri nəzərə aldıqda vergi qanunvericliyinə edilən dəyişikliklərin ilk istiqaməti kimi niyyətin investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılmasından ibarət olduğunu deyə bilərik. Xüsusilə də azad ərazilərdə biznes və investisiyalar üçün yeni vergi optimallaşma imkanlarının genişləndirilməsi əsas yer tutacaq. Məqsəd 2023-cü ildən tətbiqinə başlanılmış işğaldan azad edilmiş ərazilərdəki vergi güzəştlərinin təşviqini daha da gücləndirməklə bu ərazilərə xarici iş adamlarını cəlb etmək, bölgənin iqtisadi reinteqrasiya arxitekturasını möhkəmləndirməkdir.



Bundan başqa, dövlət-özəl tərəfdaşlığı çərçivəsində vergi təşviqlərinin verilməsi və bəzi xidmət sahələri üzrə mikrosahibkarların gəlirlərinə vergi güzəştinin tətbiq edilməsi nəzərdə tutulur ki, bu da kiçik və orta biznesin fəaliyyətinə daha geniş meydan açmaq məqsədi güdür. Biznes sektorunda vergi güzəştləri ilə yanaşı, bir sıra institusional alətlər üzrə optimallaşdırma tədbirləri nəticəsində vergi yükünün aşağı salınması da nəzərdə tutulur. Belə ki, kiçik, orta və mikro sahibkarların müxtəlif rəqəmsal və elektron sənədləşmələr, daha doğrusu, vergi əməletməsinə çəkdikləri xərclərinin minimallaşdırılması, eyni zamanda, sadələşdirilməsi istiqamətində planlaşdırılan tədbirlər sayəsində də ümumi vergi yükünün azalması gözlənilir. Bundan başqa, cari ilin ortalarında qüvvəyə minmiş Rəqabət Məcəlləsi də təşviqlərlə paralel şəkildə bu istiqamətdə imkanları daha da artıracaq.

## "Yaşıl iqtisadiyyat" quruculuğunu təşviq edən güzəştlər

Vergi güzəştləri paketində yer alan ən mühüm prioritetlərdən biri də ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirilməsidir. "Yaşıl iqtisadiyyat" quruculuğunun tərkib hissəsi kimi yer alan bu istiqamət üzrə ətraf mühitin qorunması, sənayeləşmənin ekoloji təsirlərinin azaldılması istiqamətində təşviqedici vergi alətləri çərçivəsində elektroavtomobillərin istifadəsinə böyük üstünlüyün verilməsi, ekoloji cəhətdən təmiz avtonəqliyyat vasitələrinin istifadəsinin stimullaşdırılması və təşviqi məqsədilə vergi-gömrük tətillərinin artırılması istisna olunmur.

Habelə vergi qanunvericliyində nəzərdə tutulan dəyişikliyə əsasən, enerji doldurucularının idxalı və satışı daha 2 il müddətində ƏDV-dən azad olunur.

Yeni dəyişikliyin başlıca məqsədi ölkəmizdə ənənəvi avtomobil parkını tədricən elektroavtomobillərlə əvəz etmək, onların sayını sürətlə artırmaq, avtomobil idxalı ilə məşğul olan sahibkarları bu sahəyə motivasiya etməkdir.

Habelə dünyada geniş yayılmış məhdudlaşdırıcı vergi alətlərindən istifadə olunacaq ki, onlardan biri də karbon vergisinin tətbiqidir. "Yaşıl iqtisadiyyat"ın inkişafı ilə bağlı prosesdə aktiv iştirak edən və ekoloji səmərəlilik prinsiplərinə üstünlük verən sahibkarlara "yaşıl vergi" güzəştlərinin verilməsi düşünülür, eyni zamanda, karbon emissiyasının təsirlərinin azaldılması üçün karbon vergisinin tətbiqi gözlənilir.

Hökumət idxal inflyasiyasının təsirlərini məhdudlaşdırmaq və idxalı əvəz edən yerli istehsalı stimullaşdrımaq məqsədilə 2023-cü ildə tətbiq edilən vergi-gömrük güzəştlərinin 2025-ci ildə davam etdirilməsi məqsəduyğun hesab edir. Bu çərçivəyə əsasən, daxili istehsalda istifadə edilən bir sıra xammal və aralıq mallarına tətbiq olunan idxal gömrük rüsumlarının dərəcəsinin 2024-cü il yanvarın 1-dən 7 il müddətinə "0" dərəcəyə endirilməsi, bir sıra əsas vəsaitlərin idxalına ƏDV və gömrük güzəştlərinin tətbiqi siyasətinin davam etdirələcyi nəzərdə tutulur. Həmçinin vergi və gömrük inzibatçılığı mexanizminin və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi də əsas tədbirlərdən biridir.

## Kiçik və orta biznesin fəaliyyətinin dəstəklənməsi

Umumiyyətlə, iqtisadi və investisiya təşviqi xarakterli güzəştlərin bir neçə il də qüvvədə qalması gözlənilir ki, bu da ölkədə qeyri-neft sektorlarında çalışan biznes icmasının fəaliyyətinin daha da genişlənməsini təmin etməkdir. Vergi orqanları məhz bu alətlərlə qeyri-neft sektorunda çalışan biznes icmasını həvəsləndirməyi və bununla vergi bazasını genişləndirməyi hədəfləyir. Vergi bazasının artırılması üçün nəzarət mexanizminin təkmilləşdirilməsi də islahatlar toplusunun istiqamətlərindən biridir. Ancaq bu o demək deyil ki, yumşaq nəzarət tədbirləri hansısa sahənin vergidən yayınmasına əsas verəcək, vergi orqanları qanunla müəyyən edilmiş qaydalar çərçivəsində vergi rejimlərinin tətbiqinə də xüsusi önəm verəcək.

Vergi borclarının yığılmasının effektivliyinin artırılması məqsədilə borcların alınmasına möhlət verilməsi mexanizminin və torpaq vergisi ilə bağlı müddəaların da təkmilləşdirilməsi, vergi ödəyicisinə qarşı vergi öhdəliyini verilmiş müddətdə yerinə yetirmədiyinə görə, məhdudlaşdırıcı tədbirlərin görülməsi də növbəti ilin planlarına daxildir.

Vergi Məcəlləsinə dəyişikliklə bağlı qanun layihəsinin qəbulu ölkəyə investisiya axınına, əlavə iş yerlərinin yaradılmasına, mikro sahibkarların fəaliyyətinin dəstəklənməsinə, azgəlirli mikrosahibkarın vergi yükünün optimallaşdırılmasına, avtomobil sənayesinin canlandırılmasına və müxtəlif sahələrdə təşviqedici vergi siyasətinin həyata keçirilməsinə səbəb olacaq.

***E.CƏFƏRLİ***

# COP29 məğlubiyyətinə düçar olan "Freedom House"...

## Hücum kampaniyaları iflasa uğrayan anti-Azərbaycan mərkəzlər "ənənəvi" yola qayıdır

Azərbaycanın ev sahibliyi etdiyi COP29 tədbirinin qlobal diqqəti cəlb etməsi antimilli mərkəzlərin bütün planlarını "suya düşürüb". Hələ aylar öncə fərqli istiqamətlər, fərqli mövzularla Azərbaycana qarşı təzyiq kampaniyası təşkil etməyə çalışanlar heç nəyə nail ola bilmədilər - dünyanın 200-ə yaxın ölkəsindən nümayəndə heyətləri ölkəmizdəki qlobal iqlim dəyişikliyinə qarşı mübarizə müzakirələrinə qatıldı. Davam edən tədbir çərçivəsində bəşəriyyəti maraqlandıran, işıqlı və təmiz gələcək üçün zəruri sayılan problemlər qaldırılır, onun həll yolları araşdırılır.

Beləliklə, hər hansı bir "uğurlu nəticə" göstərə bilməyən ermənipərəst mərkəzlər yenidən "ənənəvi" sayılan mövzulara "geridönüş" edir. Bir zamanlar "azad media", "insan haqları", "vətəndaş cəmiyyəti" və bu kimi özünəməxsus izah verdikləri fərqli adlarla aparılan hücum kampaniyaları son 4 ildə yeni "istiqamət qazanıb". 44 günlük Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbə, antiterror tədbirlərində qazanılan uğur anti-Azərbaycan mahiyyətli mərkəzlər üçün "yeni mövzu" "yaradıb".

Bəli, ölkəmiz son 4 ildə bölgədə yeni siyasi-iqtisadi mənzərə formalaşdırıb, o cümlədən beynəlxalq aləmdə tolerantlıq məkanı kimi tanınır, mühüm beynəlxalq tədbirlərin keçirildiyi ünvana çevrilib, ən əsası isə beynəlxalq hüquqa və demokratik prinsiplərə sədaqət nümayiş etdirir - bu fakt ermənilərin havadarı qismində çıxış edən "Freedom House" kimi özünü "demokratiya keşikçisi" qismində təqdim edən, əslində isə milli dövlətlərə qarşı səlib yürüşü aparanların oyuncağına çevrilmiş təşkilatların "ürəyincə deyil". Bu təsisat ölkəmizə münasibətdə hər zaman birmənalı şəkildə "ermənipərəst standart"dan çıxış edir. Bu dəfə də ənənəvi qərəzli yanaşmanın şahidiyik...

### Başı COP29 "daşına"dəyənlər...

Vurğulandığı kimi, COP29-la bağlı hücum kampaniyaları iflasa uğrayan ermənipərəst xorun "solistlərindən" sayılan "Freedom House" özünün "hesabatlarında" əsl reallıqları təhrif edir, absurd və qondarma iddialar irəli sürür, açıq erməni yandaşlığı nümayiş etdirir. Qurumun absurd şəkildə irəli sürdüyü "Dağlıq Qarabağ" ermənilərinə qarşı qəsdən etnik təmizləmə kampaniyası" və ya "demokratik ölkələrə Bakıya qarşı sanksiyalar tətbiq etmək" çağırışları çabaladıqca batmağa bənzəyir - bu kimi iddialarla "Freedom House" özünü daha çox ifşa edir, hansı "yuvanın quşu" olduğunu aşkar şəkildə ortaya qoyur. "Freedom House" bu dəfə beynəlxalq ictimaiyyəti Azərbaycanın "artsax sakinlərinin təhlükəsizlik zəmanəti altında "Dağlıq Qarabağa" qayıtması üçün şərait yaratmasını təmin etməyə" çağırıb. Halbuki...

### Yalan iddia, absurd ittiham...

Bəli, həm mövqe, həm yanaşma, həm də qənaət ortadadır. "Freedom House"un bu dəfəki yanaşması da əvvəlkilər kimi şər-böhtandan uzağa getmir. Hər zaman olduğu kimi, subyektivliyə və qərəzə söykənən "hesabat"larda əsl həqiqət təhrif olunur, yalan, böhtan önə çıxarılır. Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini bərpa etməsi, beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsi bu təşkilatı niyə bu qədər incidir, maraqlısı budur.

"Freedom House" və onun "başbilənləri" əsl həqiqəti bilirlər - onlar anlayırlar ki, Azərbaycan 4 ildir özünün ərazi bütövlüyünü və suverenliyini təmin edib. Bütün dünya, beynəlxalq aləm hüquqi və tarixi ədalətin bərpasını - Qarabağın erməni işğalından azad edilməsini, separatizmdən qurtulmasını dəstəkləyib. Azərbaycan atdığı bütün addımlarda, apardığı bütün siyasi fəaliyyətdə yalnız və yalnız beynəlxalq hüquqa əsaslanıb. "Freedom House" təşkilatının addımbaşı "önə çıxartmağa" çalışdığı "Dağlıq Qarabağ" adlı inzibati ərazi isə Azərbaycanda yoxdur. Ölkəmizdə Qarabağ iqtisadi rayonu var. "Freedom House" kimi bütün kartları açılmış "təşkilatların" nəyi necə adlandırması heç nəyi dəyişmir.

Qarabağı öz xoşu ilə könüllü şəkildə tərk etmiş ermənilərə isə sərbəst şəkildə seçdikləri kimi yaşamaq, köçmək üçün tam rahat, təhlükəsiz şərait yaradıldı - Azərbaycan həmin ermənilərə Azərbaycan qanunları çərçivəsində yaşamağı da təklif etmişdi, amma onlar könüllü şəkildə getməyə üstünlük verdilər. Bu da onların seçimidir və biz onların seçiminə təsir göstərməmişik.

"Freedom House"u incidən əsl "mətləblərdən" biri də məhz budur - Ermənistanın belə "qaçqın" kimi tanımadığı şəxslərə "Freedom House" "xüsusi imtiyaz", "status" tanıyır.




### "Freedom House" həqiqəti bilir, amma gizlətməyə çalışır...

Əslində, yaxşı olardı ki, Azərbaycana münasibətdə ikili standartlara müraciət edən təşkilat öz hesabatlarında Ermənistanla bağlı həqiqətləri əks etdirsin - bu ölkənin Konstitusiyasında Azərbaycanın ərazilərinə qanunsuz və əsassız iddialar yer almaqdadır. 30 ilə yaxın bölgədə sabitliyə təhdid olan Ermənistan bu gün də yalançı iddialarından əl çəkmək istəmir və regionda əbədi sülhün formalaşmasına maneçilik törədir. Yaxşı olardı ki, "Freedom House" beynəlxalq hüquq müdafiəçisi qismində bu amilə diqqət yetirərdi.

Amma görünən budur ki, ermənipərəst maraqların əsirinə çevrilmiş "Freedom House" da digər anti-Azərbaycan mərkəzlər, hətta dövlətlər kimi ölkəmizə qarşı şər-böhtandan əl çəkmək niyyətində deyil. Bu təşkilat unudur ki, Azərbaycanı bu kimi yalanlarla və ya qərəzlərlə tutduğu ədalətli yoldan çəkindirmək mümkün deyil. Ortada bir fakt var - bu kimi addımlarla, öz imicini erməni maraqlarına qurban verməklə "Freedom House heç bir beynəlxalq standartlara, qayda-qanunlara məhəl qoymayan bir qurum olduğunu bir daha nümayiş etdirir. COP29-la bağlı "burnu" ovulanların yenidən köhnə amplua-da ölkəmizə qarşı hücum təşkil etməsi onların əsl kimliyini bütün dünyaya nümayiş etdirir...

### UNESCO-nun "məqsədi" bəllidir...

"Freedom House" Qarabağdan könüllü şəkildə köçmüş ermənilərin "həyasız və arqumentsiz vəkili" olduğu kimi, ölkəmizə qarşı absurd iddialar irəli sürməkdən də çəkinmir. Onlar iddia edirlər ki, guya Qarabağda "erməni tarix və mədəniyyət abidələri" dağıdılır. Hətta təşkilat utanmadan çağırış belə edir: "Ölkələrin səyləri həmçinin UNESCO və digər təşkilatların müstəqil monitorinq missiyaları həyata keçirmək üçün "artsax"a girişinin təmin edilməsinə yönəldilməlidir".

"Freedom House"-a bir xatırlatma edək ki, hələ ötən ilin noyabrında UNESCO-ya Ağdamdan keçməklə Xankəndinə getmək və səfər zamanı Ağdamdakı dağıntıları da qeydə almaq təklif edilmişdi. Lakin qarşı tərəf bununla razılaşmamış və birbaşa Xankəndinə getmək, oradakı erməni abidələrinin vəziyyətini görmək istədiklərini bildirmişdi. Bu isə "Freedom House"un şəriklərindən olan UNESCO-nun da əsl simasını ortaya çıxaran bir faktdır - özünü tərəfsiz, bəşəri dəyərlərin daşıyıcısı "elan etmiş" beynəlxalq təşkilatın bu kimi davranışları onun haqqında əsl həqiqəti ortaya qoyur. Ağdam erməni vandalizminin o dərəcədə qurbanı olub ki, "Qafqazın Xirosiması" adını alıb. Amma UNESCO Ağdama gəlməkdən imtina etmişdi - çünki Ağdama gələcəyi təqdirdə dağıdılan abidələri, talan edilən qəbirstanlıqları, təhqir edilmiş məscidləri, minalanmış əraziləri görmüş olacaqdı.

2020-ci il Vətən müharibəsindən az sonra demək olar ki, bütün təşkilatlara, eynilə "Freedom House"a da işğaldan azad edilmiş regionlara gəlmək, həqiqətləri yerində araşdırmaq təklif edilmişdi - həmin vaxt da bir çox təşkilatlar bu dəvətdən imtina etmişdilər. Səbəb isə bəllidir - erməni barbarlığının qurbanına çevrilmiş faktlar onların "təbliğ etdikləri" yalanlarla tərs mütənasiblik təşkil edir.

Bu artıq erməni təssübkeşliyi deyil - bunun adı vəzifəsini, məsuliyyətini, birbaşa məramını və məqsədini "unutmaq", satmaq, siyasi dəyənəyə çevrilməkdir. "Freedom House" bu kimi addımları ilə tək özünü deyil, təmsil etdiyi ölkənin və strukturun da imicini zərbə altına qoymuş olur...

**P.İSMAYILOV**

# "Ekofəal" siyasi alət rolunda

## Erməni lobbisi autizmli Qretadan necə istifadə edir

Azərbaycan qlobal iqlim çağırışlarının müzakirə olunduğu COP29-a ev sahibliyi etməklə əslində bəşəriyyətin gələcəyi üçün mühüm əhəmiyyət daşıyan vacib bir missiyanı öz üzərinə götürüb. Bununla Azərbaycan dövləti və cəmiyyəti fəsadları getdikcə artan, daha çox insanı ölüm və ya qalım dilemması ilə üz-üzə qoyan iqlim dəyişmələrinə qarşı mübarizədə qlobal həmrəyliyi gücləndirməyə, hər kəsin, hər bir ölkənin bu işə öz töhfəsini verməsinə nail olmağa çalışır. Bu günlərdə Bakının uğurla ev sahibliyi etdiyi COP29 çərçivəsində aparılan müzakirələr, qəbul olunan qərarlar onu deməyə əsas verir ki, respublikamız məqsədlərinə çatır. Ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatlar, dünya liderləri Azərbaycanın COP29-a son dərəcə yüksək məsuliyyətlə hazırlaşdığını, nəticəyə nail olmaqdan ötrü böyük səy göstərdiyini xüsusi vurğulayırlar.

Ancaq belə bir məsuliyyətli dönəmdə kənarda durub çiyinlərini, necə deyərlər, dünya yükünün altına verən Azərbaycana qərəz nümayiş etdirənlər də var. Adı daim qara siyahılarda çəkilən Luis Okampo, Frank Şvabe, Avropa Şurası Parlament Assambleyası (AŞPA), ABŞ-dən olan bir sıra konqresmenlər, E.Makron iqtidarında yer alan məmurlar, Fransa parlamentinin ayrı-ayrı təmsilçiləri və digərləri bu sırada yer alırlar. İndi bu bədnam xora İsveçdən olan gənc qız - 21 yaşlı Qreta Tunberq də qoşulub. O, Bakıda COP29 keçirildiyi bir vaxtda Cənubi Qafqaz turnesinə çıxıb, əvvəlcə Tbilisidə, sonra isə İrəvanda beynəlxalq iqlim konfransına ev sahibliyi edən Azərbaycanın ünvanına yaşına və başına uyğun gəlməyən hədyanlar söyləməyə başlayıb.

### Qretanın ekofəaliyyəti kimlərə isə xoş gəlsə də...

Qreta Tunberq ekofəal kimi tanınma yolunda çox sürətlə irəliləyib. Bu tarix 2018-ci ildən başlayıb. Həmin il sentyabrın 1-də 15 yaşlı isveçli məktəbli qız Qreta Tunberq səhər məktəbə getmək əvəzinə, İsveç parlamentinin qarşısına yollanır və sentyabrın 9-na təyin olunmuş seçkilərədək məktəbə getməyəcəyini, əvəzində parlament binası qarşısında aksiyalar keçirib, hamının diqqətini qlobal iqlim dəyişmələrinin təsir etməyin vacibliyinə yönəldəcəyini bəyan edir. O, siyasətçilərə çağırış edərək onları uşaqların gələcəyinə təhlükələr yaradan iqlim dəyişmələrinə qarşı təcili qaydada tədbirlər görməyə çağırırdı. Həmin ərəfədə təəccüb yaradan yalnız gənc qızın cəsarətli çıxışı olmadı, həm də hər kəs transmilli medianın bu olaya, Qretanın şəxsinə hədsiz maraq göstərməsinə təəccübləndi. Dərk olunurdu ki, hansısa gizli bir əl onu dünya ulduzuna çevirməyə çalışır. Elə əvvəllər Qretanın təhsilinə ciddi yanaşan valideynlərinin də mövqeyi dəyişmişdi. Onlar da yeniyetmənin məktəb partasını İsveçin parlamenti qarşısında keçirilən aksiyalara dəyişməsini, kitab mütaliə etməyi qəzetlərə müsahibələr verməklə əvəzləməsini loyal qarşılayırdılar. Tunberqlər ailəsini tanıyanlar bunu onların həyatında "U" dönüşü kimi səciyyələndirirdilər.

Gənc Qretanın həyatı və ekofəaliyyəti ilə bağlı suallar yaradan məqamlar yalnız onun qısa bir müddətdə dünya ulduzuna çevrilməsi ilə bağlı deyil. Müşahidə edilirdi ki, onun keçirdiyi hər ekoaksiyaya mütləq qaydada siyasi çalarlar da qatılır və bu siyasi çalarlar da heç də hər zaman obyektiv olmur. Onun səsləndirdiyi siyasi fikirlər yad notlar kimi qulaqları deşirdi. Qretanın siyasi yetkinliyinin olmadığı, fikirləri suflyor kimi təkrarladığı hər an hiss olunurdu. Yalnız seçilmiş bəzi ölkələrin Qretanın tənqid hədəfinə çevrilməsi də diqqətdən kənarda qala bilməzdi. Axı iqlim dəyişmələrindən təsirlənməyən ölkə yoxdur. Bu gün arzuolunmaz ekoloji fəsadlarla dünyanın istənilən nöqtəsində rast gəlmək mümkündür. Qreta isə ekologiya ilə bağlı tənqidlərini yalnız ayrı-ayrı ölkələrin adlarını çəkməklə əsaslandırırdı. Ortada olan reallıq o idi ki, hansısa qüvvələr Qretanı özlərinin siyasi alətinə çeviriblər. Çoxlarının görüb dilə gətirmədiyi həqiqəti Rusiya prezidenti V.Putin açıq deməkdən çəkinmədi. 2019-cu ilin oktyabrında keçirilən Rusiya Energetika Həftəsi Forumunun plenar iclası çərçivəsində, Rusiya prezidenti Qreta Tunberq haqqında sualı cavablandırarkən bildirdi ki, onun fəaliyyətinin heyranı olanlarla eyni mövqeyi bölüşmür. Putinə görə Qreta yaxşı qızdır, amma heç kim ona real həyatı izah etməmişdir. Putin əlavə etmişdir ki, uşaqların qlobal iqlim dəyişmələri kimi problemlərlə maraqlanması sevindiricidir, lakin uşaqların və yeniyetmələrin siyasi məqsədlər üçün istifadə olunması xoşa gələn hal deyil.

Zənnimizcə, çox real təsvirdir, Rusiyanın dövlət başçısı əslində bu açıqlaması ilə Qretanın gizlədildiyi pərdəni deşdi. Bəli, gənc qız indiyədək həyatdan da siyasi məqsədlər üçün fetişləşdirilmişdi. Onun ekofəaliyyəti kimlərə isə xoş təsir bağışlasa da, bu fəaliyyətin arxasında çirkin qüvvələrin çirkin məqsədləri dayanırdı və indi də belədir.

### Erməni lobbisi və Qretanın anti-Azərbaycan səslənmələri

Artıq bir neçə gündür ki, "lövbəri"ni İrəvanda salan Qreta Tunberq oradan ölkəmizdə keçirilən COP29 iqlim konfransı və Azərbaycan əleyhinə açıqlamalar verir, aksiyalar keçirir. Ölkəmizi utanmazcasına ermənilərə qarşı bəşəri və hərbi cinayətlərdə, etnik təmizləmə siyasəti aparmaqda ittiham edir, "məsuliyyətə cəlb etməyə" çağırır. Yenə də gənc qıza yaraşmayan ifadə işlətmək məcburiyyətindəyik: Bu, təxribatçı davranışdır, yalançılıqdır, riyakarlıqdır. Gənc qız belə bir riyakarlığı etməyi özünə necə rəva görə bilər? Aydın məsələdir ki, yeniyetmə qız hələ "erməni məsələsi"nin dərinliklərinə varmaq yaşında deyil. O, yenə də arxasında gizlənən qüvvələrin istəyi ilə danışır. "Ermənilərə qarşı bəşəri və hərbi cinayətlər", "etnik təmizləmə", "Azərbaycana məsuliyyət istənilməsi" sırf erməni lobbisinin, revanşistlərin leksikonuna daxildir. Sanki Qreta ekofəal olduğunu unudub, birdən-birə ABŞ konqresmeninə, AŞPA üzvünə, Fransa Milli Assambleyasının parlamentarisinə çevrilib. Eynən, Okampo, Şvave kimi. Onlar da eyni leksikonda danışırlar. Okampoların, şvabelərin, qretaların arxasında dayanan əl eyni deyilmi? Əlbəttə ki, eynidir. Bu əl həmişə ən çirkin işlərdə, terrorlarda, qətllərdə görünən erməni lobbisidir.

Qreta da digərləri kimi, oxşar ssenaridən keçirilməklə erməni lobbisinin caynaqları arasına keçirilib. Bu, necə baş verib? Caliber.az-a görə, Tunberqin Ermənistana səfəri və səsləndirdiyi anti-Azərbaycan bəyanatları çox konkret izahları var. Məsələ burasındadır ki, o, 2020-ci ildə erməni əsilli Britaniya neft maqnatı şərəfinə təsis edilən Qaalust Gülbekyan mükafatının ilk laureatı olub. Tunberq 46 ölkədən 79 təşkilat və 57 şəxs daxil olmaqla, 136 namizəd arasından seçilib.

Bu fakt Tunberqin Ermənistana rəğbətini izah edə bilər. Onun Ermənistana səfəri və oradan Azərbaycana dil uzatması məntiqi olaraq 4 il əvvəl ona verilən bir milyon avro mükafata görə minnətdarlıq jesti kimi anlaşılır.



### Ekofəalın daha bir əmması

Dünyaya ekofəal kimi sırınan, əslində isə bəlli dairələrin siyasi aləti rolunda çıxış edən Qreta Tunberqin daha bir əmması var. Bu da onun autizm sindromu daşıması ilə bağlıdır. "The Gardian" qəzetinin iddiasına görə, Tunberqə həkimlər "Asperger sindromu, obsesif-kompulsiv pozğunluq və selektiv mutizm" diaqnozu qoyublar. O, tez-tez təkrara yol verir, fikrini cəmləyə bilmir, özünü ələ almaqda, emosiyalarını cilovlamaqda çətinlik çəkir, müxtəlif səpkili suallara eyni cavablar verir. Qreta sosial olaraq qəbuledilməz davranış və ya rüsvay olmaq qorxusu yaşayır...

Həkimlərin Qreta Tunberqə qoyduqları diaqnoz onun konkret situasiyalarda qeyri-adekvat davranışlar sərgiləməsinə əsas ola bilər. Görünür, erməni lobbisinin təmsilçiləri də Qretanın xarakterindəki bu cəhəti nəzərə almaqla gənc qızı öz komandalarına cəlb ediblər. Belə xüsusiyyətlərə malik insanları drijor çubuğu ilə idarə etmək asandır. Hər şeydən göründüyü kimi, Qreta hələlik ona bəslənən ümidləri artıqlaması ilə doğruldur.

**Mübariz ABDULLAYEV**

# Rusiyadan “təmkinli qərar”...

## Ballistik raket atəşinə yeni “Nüvə Doktrinası” cavabı...

### Kreml Qərbə hansı mesajı verdi?

ABŞ prezidenti Co Baydenin Ukraynanın Rusiya ərazisinə uzaqmənzilli raketlərdən istifadə etməklə zərbə endirməsinə icazə verməsi münaqişəni daha fərqli müstəvilərə daşıya bilər. Xatırladaq ki, bu hücumlarda istifadə edilən ATACMS raketlərinin uçuş məsafəsinin 190 mil və ya 305 km olduğu bildirilir. Rusiya isə çərşənbə axşamı günü Ukrayna tərəfindən ərazisinə ABŞ-ın verdiyi uzaqmənzilli raketlərlə hücum edildiyini bildirib. Rusiyanın Müdafiə Nazirliyinin məlumatında bildirilib ki, Ukrayna səhər saatlarında Rusiyanın Bryansk vilayətinə zərbələr endirərkən Ordu Taktik Raket Sistemindən (ATACMS) istifadə edib.

### Prezidentin imzası ilə təsdiqləndi...

Bu isə Rusiyanın daha ciddi şəkildə müdafiə səddi formalaşdırması ilə müşayət olunmaqdadır. Belə ki, Rusiya Prezidenti Vladimir Putin yenilənmiş nüvə doktrinasının - “Nüvə silahının tətbiqinin qarşısının alınması sahəsində dövlət siyasətinin əsaslarının təsdiq edilməsi haqqında” Fərman imzalayıb. Rusiya hərbi kosmik hücum silahlarının, o cümlədən PUA-ların kütləvi şəkildə havaya qalxması və onların Rusiya sərhədini keçməsi barədə etibarlı məlumat əldə edərsə, nüvə silahından istifadə edə bilər. Doktrinanın əsas prinsipi nüvə silahının ölkənin suverenliyini qorumaq üçün son vasitə olmasından ibarətdir.

Fərmanda qeyd olunur ki, potensial düşmənin Rusiya və ya müttəfiqlərinə qarşı təcavüzündən qorunmanın təmin edilməsi ölkənin ən yüksək dövlət prioritetlərindən biridir. Sənəddə vurğulanır ki, nüvə silahının qarşısının alınması sahəsində dövlət siyasəti müdafiə xarakteri daşıyır.

Sənədə əsasən, hərbi koalisiyaya daxil olan hər hansı bir dövlətin Rusiyaya və ya onun müttəfiqlərinə qarşı təcavüzü bütövlükdə, koalisiyanın təcavüzü hesab olunacaq. Bundan əlavə, qeyri-nüvə dövlətinin nüvə dövlətinin iştirakı, yaxud dəstəyi ilə Rusiyaya və ya onun müttəfiqlərinə qarşı təcavüzü onların birgə hücumu sayılacaq. Hərbi infrastrukturunu Rusiya ərazisinə yaxınlaşdıran hərbi koalisiyaların yaradılması və ya genişləndirilməsi ölkəyə qarşı təhlükə hesab olunacaq və bu təqdirdə də nüvə silahının qarşısının alınması strategiyası tətbiq edilə bilər.

Bu cür təhdidlərə potensial düşmən tərəfindən Rusiya sərhədləri yaxınlığında genişmiqyaslı hərbi təlimlərin planlaşdırılması və keçirilməsi də daxildir. Rusiya hərbi kosmik hücum silahlarının, o cümlədən PUA-ların kütləvi şəkildə havaya qalxması və onların Rusiya sərhədini keçməsi barədə etibarlı məlumat əldə edərsə, nüvə silahından istifadə edə bilər.

### Təsadüf, yoxsa zərurət?

Siyasi ekspertlər imzalanan Fərmanın Ukraynanın ATACMS hücumu ilə sadəcə üst-üstə düşdüyü fikrindədir - buna arqument kimi isə, Rusiya rəhbərliyinin 2024-cü il iyunun əvvəlindən nüvə doktrinasının dəyişdirilməsinin mümkünlüyünü irəli sürməsi göstərilir. Bu ilin sentyabrında Vladimir Putin sözügedən dəyişiklikləri Təhlükəsizlik Şurasının iclasında elan etmişdi. Ötən müddət ərzində Rusiyanın müdafiə və xarici işlər nazirlikləri, eləcə də Təhlükəsizlik Şurasının aparatı redaktə üzərində işləyib.

### Siyahı genişləndirilib...

Yeni doktrina Rusiyanın nüvə silahından istifadə etməsi üçün şərtlərin siyahısını da genişləndirir. Artıq şərtlər dörddən beşə qaldırılır. Yeni şərt isə belədir: “Aerokosmik hücum silahlarının (strateji və taktiki təyyarələr, qanadlı raketlər, pilotsuz, hipersəs və digər təyyarələr) kütləvi şəkildə buraxılması (havaya qalxması) və onların Rusiya Federasiyası dövlət sərhədindən keçməsi haqqında etibarlı məlumatın alınması təqdirində...”

Nüvə silahının istifadəsi üçün əvvəlki doktrinada yer alan daha iki şərtə isə əlavələr olunub.

### Yeni sənəd hansı ehtiyacdan irəli gəlib?

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov nüvə silahının qarşısının alınması sahəsində dövlət siyasətinin əsaslarını təsdiq edən Fərmanı şərh edərək jurnalistlərə bildirib ki, Rusiya dövlətinin nüvə silahının qarşısının alınması sahəsində siyasətinin əsasları həm də potensial düşmənlərin Rusiyaya və onun müttəfiqlərinə qarşı təcavüzü halında cavab tədbirlərinin qaçılmazlığını nümayiş etdirir. Onun sözlərinə görə, yeni sənəd bu sahədə dövlət siyasətini mövcud vəziyyətə uyğunlaşdırmaq ehtiyacından irəli gəlib. O, nüvə doktrinasının yenilənmiş variantının dərc olunmasının Vaşinqtonun Kiyevə Amerika raketləri ilə Rusiya ərazisinin dərinliklərinə hücum etməyə icazə verməsi ilə əlaqəsi barədə suala cavabında deyib ki, sənəd “vaxtında dərc edilib”.



### Nüvə doktrinası nədir?

Qeyd edək ki, Rusiyanın nüvə doktrinası nüvə silahının istifadəsi sahəsində əsas sənədidir. Rəsmi adı “Rusiya Federasiyasının nüvə silahının qarşısının alınması sahəsində dövlət siyasətinin əsasları” olan sənəd hərbi doktrina ilə yanaşı, Rusiyanın təhlükəsizliyinə yarana biləcək təhdidlərin zərərsizləşdirilməsinə istiqamətlənib. Yeni redaksiya artıq Prezident Putinin imzası ilə dünən təsdiqlənib.

Sənəd nüvə silahından istifadə təhlükəsi ilə potensial hücumun qarşısını almaq üçün tədbirlər kompleksi də sayılır. Bu sənədin ilkin variantı 2000-ci ilin aprelində qəbul edilmiş ilk dövlət hərbi doktrinasında əks olunmuşdu. Bu müddəalar beynəlxalq sabitliyi və sülhü qoruyan amil kimi qiymətləndirilmişdi - oxşar müddəalar prezident Dmitri Medvedev tərəfindən 2010-cu il fevralın 5-də imzalanmış növbəti hərbi doktrinada da yer almışdı. Nüvə doktrinası 2 iyun 2020-ci ildə prezident Putinin “Nüvədən çəkindirmə sahəsində dövlət siyasətinin əsasları haqqında” Fərmanı ilə “müstəqillik” qazandı. Hərbi doktrina ilə müqayisədə bu sənəd Rusiyanın hansı şərtlər altında nüvə silahından istifadə edə biləcəyini ətraflı təsvir edir.

- Rusiya öz ərazisinə və ya müttəfiqlərinin ərazisinə hücum edən ballistik raketlərin buraxılması barədə etibarlı məlumat aldığı təqdirdə;

- Rusiyaya və ya onun müttəfiqlərinə qarşı nüvə silahından və ya digər kütləvi qırğın silahlarından istifadə ediləcəyi halda;

- Rusiyanın mühüm hökumət və ya hərbi obyektləri hədəfə alındığı təqdirdə; - Adi silahlardan istifadə etməklə dövlətin mövcudluğunu təhdid altına salacaq hücumlar olan zaman Rusiya “nüvə reaksiyasını” poza bilər.

### Ölkələrin nə qədər “nüvəsi” var?

Xatırladaq ki, açıqlanan son statistik rəqəmlərə görə, dünyada ümumilikdə 12,500-13,000 arasında nüvə döyüş başlığı mövcuddur. Bunların təxminən 90 faizi ABŞ və Rusiyanın arsenalına daxildir. Digər ölkələr isə kiçik və regional çəkindirmə məqsədlərinə uyğun arsenal saxlayır. Nüvə dövlətləri də iki kateqoriyaya ayrılır:

Rəsmi nüvə dövlətləri (BMT Təhlükəsizlik Şurasının daimi üzvləri):

- Rusiya dünya üzrə ən böyük nüvə arsenalına malikdir - təxminən 4,500 dən artıq aktiv döyüş başlığına sahibdir. Rusiyanın həm də modernləşdirilmiş qitələrarası raket texnologiyası mövcuddur;
- ABŞ isə təxminən 3,700 aktiv döyüş başlığı ilə siyahıda ikinci yeri tutur. ABŞ da strateji müdafiə üçün istifadə olunan qitələrarası ballistik raketlərə sahibdir.;
- Çində isə təxminən 400 dən artıq nüvə başlığı var;
- Fransa son statistikaya görə 290 nüvə başlığına sahibdir və bu arsenal əsasən sualtı gəmilərdə yerləşdirilib;
- Böyük Britaniyanın isə təxminən 225 başlıqdan ibarət arsenalı var ki, bu ölkənin də müdafiə strategiyası əsasən sualtı bazalara yönəldilib.

Rəsmi olmayan nüvə dövlətlərinə gəldikdə isə:

- Hindistanın təxminən 164 nüvə başlığı var. Hindistan nüvə potensialını həm Pakistan, həm də Çin ilə münasibətləri nəzərə alaraq inkişaf etdirir.
- Pakistanın isə 170 nüvə başlığının olması bildirilir. Pakistan isə nüvə strategiyasını əsasən Hindistana qarşı balans yaratmaq məqsədilə formalaşdırıb.
- Şimali Koreyada təxminən 30-40 başlıq mövcuddur. Şimali Koreya əsasən strateji və regional çəkindirmə məqsədlərinə yönəlmiş proqramlarla məşğuldur.
- İsrailin isə rəsmi olaraq təsdiq etməsə də, təxminən 90 nüvə başlığına sahib olduğu bildirilir.

### Çin yeganə ölkədir ki...

Nüvə silahına malik ölkələrdə isə nüvə doktrinası da mövcuddur - Birləşmiş Ştatlar 2022-ci ildə təsdiqlənmiş “Nüvə Siyasətinin İcmalı”nda (Nuclear Posture Review) nüvə silahının hansı şərtlər altında istifadə oluna biləcəyini açıqlamır. Sənədə görə, “Birləşmiş Ştatlar nüvə silahından yalnız ekstremal şəraitdə ABŞ və ya onun müttəfiqlərinin, tərəfdaşlarının həyati maraqlarını qorumaq üçün istifadə etməyi nəzərdən keçirə bilər”. Sənədə əsasən, ABŞ nüvə silahı olmayan dövlətlərə qarşı nüvə silahından istifadə etməyi planlaşdırmır. Eyni zamanda, ilk zərbədə nüvə silahından istifadə edilməsi ilə bağlı ifadə son redaktə zamanı sənəddən çıxarılıb.

Böyük Britaniyanın nüvə silahından istifadə prinsipləri 2023-cü ilin martında qəbul edilmiş xarici siyasət doktrinasında ifadə olunub. Ölkə NATO müttəfiqlərinin müdafiəsi də daxil olmaqla, “yalnız özünümüdafiə üçün ekstremal şəraitdə” ondan istifadə etməyə hazırdır.

Fransa nüvə silahlarına yanaşmasını oxşar şəkildə müəyyənləşdirir - “Strateji İcmal”da (2022) “həyati maraqları” qorumaq üçün bu cür silahlardan istifadə etməyə hazır olduğu bildirilir.

Çin yeganə ölkədir ki, onun doktrinasında nüvə silahından ilk istifadə etməklə bağlı müddəa var. 2019-cu ildə nəşr olunan “Yeni erada Çinin Milli Müdafiəsinə dair Ağ Kitab”ın onuncu nəşrində Pekinin nüvə silahı olmayan ölkələrə qarşı nüvə silahından istifadə etməyəcəyi vurğulanır.

**P.SADAYOĞLU**

---

## Aİ müdafiə immunitetini artırmaq üçün yollar axtarır - maliyyə iki dəfə artırılır

2025-ci il özünün gözləntiləri ilə Qərbi də narahat etməkdədir. Hazırkı məqamda dünyanın siyasi-hərbi qütblərindən birini təşkil edən “kollektiv Qərb” daxilində haçalanma get-gedə dərinləşir. ABŞ-da yeni siyasi tərəfin iqtidara gəlməsi Qərb dövlətlərini, xüsusilə də, “köhnə qitə”nin “avrosentrist” qrupunu kompensasiya siyasəti yürütməyə vadar edir. Gələn ilin yanvarında baş tutacaq inaqurasiya mərasimindən sonra Ağ evin verdiyi qərarların altına imza atacaq Donald Trampın siyasi-hərbi anonsları isə heç də avrosentristlərin ürəyincə deyil - xüsusilə, Mərkəzi Avropada baş verənlərə nəzərən Vaşinqtonun vəd etdiyi siyasət avrosentristlərin maraqları ilə üst-üstə düşmür. Trampın Ukrayna müharibəsindən çəkiləcəyini bildirməsi və ardından NATO haqqında pessimist düşüncələr səsləndirməsi Avropanı hərəkətə gətirib.

# Avropa narahatdır

## ABŞ NATO-dan çəkilsə...

### Hərbi xərclər ildə 340 milyard dollar arta bilər...

Buna hazırlığın ilkin mərhələsi kimi qitənin lider dövlətləri müdafiə xərclərini iki dəfə artırmalı ola bilər. Donald Trampın prezidentliyi dövründə Amerikanın Avropanın təhlükəsizlik arxitekturasının təminatındakı iştirakını azaldacağını bildirməsi bununla bağlı SOS siqnalı yaradır. Bəzi beynəlxalq agentliklərin hesabatları da bunu təsdiqləyir - Avropanın ən böyük 15 NATO üzvü hərbi xərclərini ildə 340 milyard dollar artıraraq 720 milyard dollara çatdırmalı ola bilər. “Bloomberg Intelligence” analitikləri mövcud vəziyyətdə Avropaya strateji rəqabəti həll etmək üçün daha çox vəsait lazım olduğunu bildirirlər. Hesabata görə, Avropanın təcili olaraq quru qoşunları üçün döyüş tanklarına, artilleriya qurğularına və piyada döyüş maşınlarına, həmçinin təchizatçı, yükdaşıyan təyyarələr və sualtı ovçular kimi dəstək maşınlarına ehtiyacı var. Analitiklər hesab edirlər ki, Avropada hərbi xərclərin artmasından “Leonardo SpA”, “Airbus SE”, “BAE Systems Plc” və “Rolls Royce Holdings Plc” kimi şirkətlər böyük fayda götürəcəklər. Qeyd edilir ki, bölgənin müdafiə sənayesi bazası, çox güman ki, qısa və ortamüddətli dövrdə lazım olan hər şeyi təmin edə bilməyəcək: “Avropalılar bir sıra büdcə xərc prioritetlərinə yenidən baxmalı ola bilər, lakin təhlükənin miqyası eləd ir ki, onlar buna məhəl qoymaya bilməzlər”.



### Tramp əvvəlki fikrində israrlıdır...

Bəli, Donald Tramp hələ birinci prezidentliyi dövründə NATO-nu dəfələrlə sərt tənqid etmiş və təşkilatı ABŞ-ın maliyyə maraqlarına zidd qurum adlandırmışdı. O, ABŞ-ın NATO-nun müdafiə xərclərinin 70 faizindən çoxunu ödədiyini və Avropa ölkələrinin bu yükü bölüşmədiyini bildirirdi - bu bəyanatlar, xüsusilə 2018-ci ildə Brüsseldə keçirilən NATO sammitində diqqət mərkəzində olmuşdu. Tramp açıq şəkildə bəyan etmişdi ki, NATO-ya üzv ölkələr ÜDM-in ən azı 2 faizini müdafiə xərclərinə yönəltməsələr, ABŞ alyansdan çıxa bilər.

ABŞ-ın NATO-dakı rolu isə olduqca böyükdür - onun həm hərbi gücü, həm də maliyyə töhfələri bunu deməyə əsas verir. Statistika göstərir ki, ABŞ NATO büdcəsinə illik təxminən 750 milyard dollar sərf edir. Bu, NATO-ya üzv digər ölkələrin ümumi müdafiə xərclərindən daha çoxdur. ABŞ-ın bu mövqeyi xüsusilə Mərkəzi və Şərqi Avropa ölkələrində narahatlıq yaradır - onlar öz təhlükəsizlikləri üçün əsasən ABŞ-ın hərbi dəstəyi ilə təmin edirlər.

ABŞ-ın NATO-dakı rolunun azalması ehtimalı Avropa ölkələrini öz müdafiə sistemlərini yenidən nəzərdən keçirməyə məcbur edir. NATO-nun müdafiə xərcləri üzrə müəyyən etdiyi 2 faiz hədəfini çox az sayda ölkə yerinə yetirə bilib. 2023-cü ildə NATO üzv ölkələrinin müdafiə xərclərinə diqqət yetirsək:

- ABŞ ÜDM-in 3,5 faizini (750 milyard dollar);
- Polşa ÜDM-in 3.9 faizini (24 milyard dollar);
- Yunanıstan ÜDM-in 3.2 faizini,
- Almaniya ÜDM-in 1.6 faizini yönləndirir - lakin hökumət bu göstəricini bu ildən artıraraq qarşıdakı dövrdə faiz nisbətini yüksəltmək istəyir;.
- Fransa isə ÜDM-in 2.1 faizini bu məqsədə “xərcləyir”.

### NATO-dakı xərc bölgüsü...

Bu rəqəmlər göstərir ki, xüsusilə Qərbi Avropa ölkələri ABŞ-ın NATO-dakı mövqeyindən asılıdır. ABŞ-ın NATO-dan çəkilməsi ehtimalı Avropanı daha çox maliyyə yükü götürməyə məcbur edir. Bununla yanaşı, müdafiə xərclərinin artması iqtisadi çətinliklərlə üzləşən ölkələr üçün böyük bir problem vəd edir.

Məhz bu səbəbdəndir ki, ayrı-ayrı zamanlarda Avropa özünün kollektiv müdafiə refleksini yaratmağa cəhdlər göstərir. Son dövrlərdə Avropa İttifaqı (Aİ) çərçivəsində bir sıra yeni müdafiə təşəbbüsləri müzakirə olunmaqdadır:

- “Strateji Avtonomiya” Konsepti - Avropa liderləri müstəqil hərbi gücün qurulmasını prioritet kimi görür. Bunun çərçivəsində Aİ müdafiə büdcəsinin 5 milyard avroya qədər artırılması nəzərdə tutulur.
- Avropa Müdafiə Fondu: Bu fond 2027-ci ilə qədər 8 milyard avro məbləğində maliyyə resursu yaratmağı planlaşdırır. Məqsəd müdafiə sənayesinin inkişafını sürətləndirməkdir.
- PESCO (Daimi Strukturlu Əməkdaşlıq): Bu təşəbbüs çərçivəsində Avropa ölkələri birgə hərbi təlimlər və müdafiə layihələri həyata keçirir. PESCO-nun əsas hədəfi NATO-dan asılılığı azaltmaqdır.

### Aİ yeni yollar düşünür...

- Nəhayət, ortaq Avropa Ordusu ideyası: Avropa İttifaqı daxilində uzun müddətdir müzakirə olunan bu ideya, birgə müdafiə gücünün yaradılmasını nəzərdə tutur. Lakin siyasi və texniki maneələr səbəbindən bu təşəbbüs hələ də reallaşmayıb.

Avropa, həmçinin müdafiə sənayesini gücləndirmək üçün strateji tərəfdaşlıqlar qurur. Məsələn, Fransa və Almaniya birgə 6-cı nəsil döyüş təyyarəsinin hazırlanmasına 8 milyard avro ayırıb.

### Ağ ev “əlini” Ukraynadan çəksə...

ABŞ-ın Ukraynaya verdiyi hərbi və maliyyə dəstəyi müharibənin gedişində həlledici rol oynayır. 2022-ci ildən etibarən ABŞ Ukraynaya milyardlarla dollar hərbi yardım ayırıb. Bu yardım çərçivəsində HIMARS reaktiv yaylım atəşi sistemləri, “Patriot” hava hücumundan müdafiə sistemləri və böyük həcmdə döyüş sursatları təchiz edilib. Avropa ölkələri bu prosesdə də uduzur - onlar ABŞ qədər böyük maliyyə və texniki yardım göstərə bilmir. Məsələn, 2023-cü ilin sonlarına qədər:

- Avropa İttifaqı Ukraynaya ümumi olaraq ABŞ-ın yardımının yarısından daha az hərbi yardım ayırıb;
- Polşa və Baltikyanı ölkələr ÜDM-lərinin daha yüksək faizini Ukrayna dəstəyinə yönəltsələr də, bu yardımlar miqyas baxımından ABŞ-ın dəstəyi ilə müqayisə olunmazdır.

Beləliklə, Avropa bu məsələdən də böyük narahatlıq keçirir - Trampın bildirdiyi kimi Vaşinqton Ukrayna məsələsinə münasibətdə mövqeyində yeniliklər etsə, Ukraynaya dəstəyi azaltsa, bu, Avropa ölkələrinin üzərinə “əlavə yük” qoyacaq. ABŞ-ın dəstəyinin azalması birbaşa NATO-nun kollektiv müdafiə strategiyasını sıradan çıxaracaq. Maraqlıdır ki, Tramp administrasiyası da böyük ölçüdə bu yardımların azaldılacağını, hətta kəsilə biləcəyini istisna etmir. Onlar dövlətin gəlirlərini heç də Ukraynada əsassız iddialara deyil, ölkəsi daxilində sosial layihələrə yönləndirmək niyyətindədirlər.




### Yaxın gələcəkdə...

Avropa ölkələrinin bu istiqamətdəki səyləri, ABŞ-ın NATO-dan çıxması ehtimalına qarşı kollektiv müdafiənin gücləndirilməsinə yönəlib. Lakin bu proses uzunmüddətli və bahalı olacaq, xüsusilə də iqtisadi problemlərin mövcud olduğu bir dövrdə belə bir addımın atılması Avropa üçün iqtisadi bankrot situasiyası belə yarada bilər. Prosesin hansı istiqamətə yönələcəyini isə qarşıdakı dövrdə daha açıq şəkildə görəcəyik - NATO-nun gələcəyi ABŞ və Avropa ölkələri arasında kollektiv müdafiə məsuliyyətinin daha ədalətli bölüşdürülməsindən asılı olacaq. Avropa liderləri isə NATO-dan kənar kollektiv müdafiə mexanizmlərini gücləndirmək üçün konkret addımları artıq nəzərdən keçirir...

**P.İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Maraqlı salamlaşma adətləri

## Dil çıxaranlar, üzə tüpürənlər, burun sürtənlər...



*Yeganə BAYRAMOVA*

Salamlaşma bütün ölkələrin mədəniyyətində xüsusi yer tutur. Hər bir cəmiyyətdə insanlar arasındakı ünsiyyət zamanı birinci söz salamlaşma olur. Salamlaşmaq cəmiyyət içərisində özünəməxsus yeri olan, etik normaları və sosial qayda-qanunları cəmləşdirən bir dəyərdir. Sosial bir bacarıq hesab olunan salamlaşma cəmiyyətdə insanların sosiallığını artırır, sağlam münasibətlərin qurulmasına kömək edir. Bir sözlə, insanlar arasında sağlam bir ünsiyyət və əlaqənin qurulması üçün salamlaşmanın özünəməxsus yeri var.

Müxtəlif din və mədəniyyətlərdə salamlaşma zamanı istifadə edilən kəlmələr xoşbəxtilk və səadət arzulamaq, sağlamlıq və uzun ömür diləmək kimi mənalar daşıyır. Dünya xalqları arasında bədən dili ilə salam vermə zamanı əl və üzdən öpmək, qucaqlaşmaq, sağ əllə görüşmək, əl qaldırmaq, əl yelləmək, papaq qaldırmaq, dizləri bir az bükərək, önə doğru əyilmək, yerə qapanmaq və s. kimi adətlər var.

1973-cü ildən başlayaraq hər il noyabrın 21-i Beynəlxalq salamlaşma günü kimi qeyd olunur. Bu günü iki amerikalı qardaş - Maykl və Brayn Makkomak təsis edib. Beynəlxalq salamlaşma günü soyuq müharibənin ən qaynar çağında təsis olunub. Qardaşlar bu yolla beynəlxalq aləmdəki gərginliyə qarşı çıxış ediblər. O zaman bu ideya dünya ictimaiyyətinin xoşuna gəldiyindən bir çox ölkələrdə onu müsbət qarşılayıblar.

Beynəlxalq salamlaşma gününün qaydalarına görə, həmin gün hər kəs qarşısına çıxan şəxsə onu tanıyıb-tanımamağından asılı olmayaraq salam verə bilər. Avropadan fərqli olaraq Azərbaycanda əhali Beynəlxalq salamlaşma günü barədə az məlumatlıdır. Amma paytaxt Bakıda bu günü qeyd edənlər az da olsa var.

**Salamlaşmanın tarixi...**

"Salam" ifadəsi əslində döyüş tarixi ilə bağlıdır. Belə ki, qədimdə kişilər hər zaman üstlərində bir silah gəzdirirdilər. Həmin silah da mütləq sağ əldə olmalı idi. Xoş məqsədlə rastlaşan kişilər əldə silah olmadığını bildirmək üçün boş sağ əllərini bir-birinə təqdim edib sıxırdılar. Sonradan bu vərdiş görüşmək nümunəsinə çevrildi.

Salamlaşma ilə bağlı başqa variantda isə deyilir ki, adamlar silahlı olmadıqlarını göstərməkdən ötrü bir-birinə ovuclarının içini göstərirdilər. Amma qədim Romada bu adət azacıq dəyişdi. Belə ki, Romada insanlar boş ovuc göstərənin silahsız olmasına inanmırdılar. Elə zənn edirdilər ki, ovuc göstərən adam libasının altından silah çıxarıb onu vura bilər. Odur ki, tam arxayın olmaq üçün əllərini bir-birinə yaxınlaşdıraraq sıxmağa başladılar.

Bu adət sonradan unuduldu. Yalnız renessans dövrünün əvvəllərində, Avropanın sənaye cəmiyyətinə keçidi ərəfəsində kommersantlar bu ənənəni yenidən dəbə saldılar.

**Hərbi salamlaşma...**

Hərbi salamlaşma isə Çingiz xanın ordusunda yaranan bir ənənədən meydana gəlib. Orta əsrlərdə dünyanın ən böyük ordusunda sıravi döyüşçüdən tutmuş yüksək çinli sərkərdəyə qədər hər kəs rastlaşan zaman özünün Çingiz xan ordusunun üzvi olduğunu bildirmək üçün əlini çiyin bərabərindən başına aparırdı. Üz-üzə gəldiyi adam eyni hərəkəti edirdisə, onun da döyüşçü olduğu bilinirdi.



Hazırda dünyanın əksər ölkələrində həm mülkü həyatda, həm də hərbdə ənənəvi salamlaşma qaydaları tətbiq olunur. Elə ölkələr var ki, onlarda adi üsulla yanaşı, öz tarixi keçmişlərinə aid olan salamlaşma qaydaları da var.

**Dünya ölkələrində salamlaşma...**

Çində salamlaşarkən baş əyən zaman əl bədən boyu uzadılır. Bir birinə yapışdırılan əl həm birliyi, həm də salam verən şəxsin humanistliyini göstərir. Belə ki, baş əydiyi vaxt sinədən aralı bir-birinə əl yapışdırmaqla salam verən həm də "Mən mərhəmətliyəm" jestini edir.

Qədim Şərq döyüş növlərindəki mübarizədən əvvəl və sonra edilən məşhur salamlaşma isə "mən həm mərhəmətliyəm, həm də güclüyəm" anlamını daşıyır. Həmin salamlaşmada sol əl düz və açıq halda yuxarı qaldırılır, sağ əlin yumruğu isə açıq sol əlin içinə vurulur. Burada açıq əl mərhəmətliyin, yumruq isə gücün simvoludur.

**Bu sözü demək olmaz...**

Amerikada salamlaşan zaman "pisəm" demək çox böyük ədəbsizlik sayılır. Bundan əlavə, ABŞ-da əsasən də gənclərin görüşdüyü zaman etdikləri dost "çest"i salamın tarixinə bir səyahəti yada salır. Onlar bu "çest"lə "əlimdə silahım yoxdur" fikrini ifadə edirlər.

**Qeyri-adi salamlaşma adətləri...**

Fransada salamlaşan zaman öpüşməklə yanaşı, havaya birdən beşə qədər öpüş göndərirlər.

Soyuqdan donan laplandiyalılar burunlarını bir-birinə sürtürlər.

Mehriban yaponlar üç növ baş əymə ilə salamlaşırlar: ən alçaq, orta və yüngül. Bu da yüksək mədəniyyətə və intizama sahib olan yaponların qarşıdakı adama verdiyi hörməti əks etdirir.

Tibetlilərdə görüşmək çox qəribə vəziyyətdə baş verir. Onlar salamlaşan zaman sağ əllə papaqlarını çıxarır, sol əllərini isə qulağın arxasına qoyub dillərini göstərirlər.

Zulu tayfaları salamlaşarkən "mən səni görürəm"- deyə qışqırırlar.

Afrikanın bəzi tayfalarında adamlar üzbəüz gəldikləri adama tüpürürlər, bu onlarda ədəbsizlik yox, hörmət göstəricisi sayılır.

Salamı və sağollaşmanı ifadə edən bəzi jestlər var ki, onlar fərqli yerlərdə tamam fərqli məna daşıyır. Məsələn, çox ölkədə bütün qolunu bir tərəfdən digər təfərə yellətmək "salam", " sağ ol" mənasını ifadə etdiyi halda, Şərqi Asiya ölkələrində bu tamamilə nümayişkaranə bir hərəkətdir. Əlavə olaraq, bəzi Avropa ölkələrində, Yaponiya, Latın Amerikasında bu "xeyr", ümumiyyətlə, inkar cavab sayıla bilər. Hindistanda isə bu "bura gəl" deməkdir.

Müsəlman dünyasında əl sıxmaq və salamlaşmadan söz açarkən onu deyək ki, "salam"ın özü ərəb sözüdür və "sülh olsun" mənasını verir. Bu gün ərəb ölkələrində qadınların əlini sıxaraq görüşmək qəti qadağandır. Tarixin elə mərhələsi olub ki, ərəb ölkələrində kişilərin belə əl sıxması caiz sayılmırdı. Amma Məhəmməd peyğəmbər zamanında əllə görüşmək çox xoş bir əlamət sayılırdı. İslama görə, sadəcə ildə bir gün deyil, hər gün salamlaşma günüdür.

*Yeganə BAYRAMOVA*




## Ümumdünya Televiziya Günüdür

Gündəlik həyatımızda müxtəlif saatlarda televiziya verilişlərinə baxmalı oluruq. Dünyada geniş və sürətlə yayılan televiziya kanalları tamaşaçıları öz cazibəsində saxlamaqdadır. Milyonlarla insan hər gün televiziyanın köməyi ilə dünyanın müxtəlif yerlərində baş vermiş mühüm hadisələrdən, yeniliklərdən xəbər tutur. Televiziyanın ixtirasından uzun illər keçsə də, "sehrli qutu" öz sirrini saxlayır, mavi ekranın cazibəsi davam edir.

Artıq 28 ildir ki, noyabrın 21-i Ümumdünya Televiziya Günü kimi qeyd olunur. Belə ki, 1996-cı ildə Birləşmiş Millətlər Təşkilatı üzv ölkələri Beynəlxalq Televiziya Gününü qeyd etməyə çağırıb. Bunun üçün Birinci Dünya Televiziya Forumunun keçirilmə tarixi noyabrın 21-i seçilib. BMT-nin illik təşəbbüsü çərçivəsində, bu gün dünyanın hər yerindən televiziya stansiyaları birləşərək insanların həyatında televiziyanın gücünü xatırlatmaq üçün 30 saniyəlik videoçarx nümayiş etdirirlər.

Dünyada ilk televiziya verilişi 1936-cı ildə Londonda olub. Nəsillərin yaddaşında həkk olunmuş, insanların özlərinə və dünyaya baxışlarına güclü təsir göstərən maraqlı televiziya verilişlərinin adını qeyd etmək yerinə düşər.

**İnsanın Aya enməsi...**

ABŞ kosmik modulunun Aya enməsi, Ayın üzərində insanın atdığı ilk addımları, astronavtlar Nil Armstronq və Edvin Bazz Oldrinin yeriməsini canlı yayımda 600 milyon adam izləyib.

Bu, qlobal televiziya verilişləri yayımında dünya rekordu idi. O zaman ilk dəfə aydın oldu ki, televiziya siqnalı təkcə işıq sürətilə məlumat yayan yox, eləcə də fərqli mədəniyyətə aid insanları da birləşdirə bilən, eyni hissləri onlarda doğura bilən bir vasitədir.

Ağ-qara televiziya təsvirinin keyfiyyəti aşağı olsa da, o dövrdə bu, ən qabaqcıl texnoloji nailiyyət sayılırdı. ABŞ-da Ay proqramına start veriləndən bəri NASA Apollo kosmik gəmisinin tikintisilə yanaşı Aydan Yerə televiziya siqnalı göndərə bilən xüsusi antenna da yaradırdı.

**"Live Aid" xeyriyyə konserti**

Bu, tarixdə ilk dəfə telemarafon formatında keçirilmiş xeyriyyə konserti idi. Həmin telemarafona dünya əhalisinin 40 faizi yəni təxminən 2 milyard insan baxmışdı.

Telemarafonun keçirilməsi ideyasını musiqiçi və fəal Bob Geldof irəli sürmüşdü: rok ulduzlarının görünməmiş populyarlığını televiziyanın texniki imkanları ilə birləşdirib bundan pul çıxarmaq. Konsertdən əldə edilən qazanc Afrikada yoxsul əhalinin vəziyyətinin yüngülləşdirilməsinə yönəldilmişdi.

Aksiya eyni zamanda iki arenada keçirilmişdi - Londonun "Wembley" stadionunda və Filadelfiyada "Kennedy" stadionunda. O zaman BBC öz verilişlərini təxirə salaraq 16 saat ərzində həmin marafon konsertini canlı yayımda translyasiya edib.

**Donahue və Poznerin ABŞ-SSRİ telekörpüləri**

1980-cı illərdə sovet tamaşaçının amerikalılar barədə təsəvvürlərini radikal dərəcədə dəyişən telekörpü verilişləri oldu. Telekörpülər hələ 1982-ci ildən təşkil edilməyə başlamışdı, yəni yenidənqurmaya qədər, amma dar auditoriya üçün.

Yalnız sovet jurnalisti Vladimir Pozner və amerikalı Phil Donahue verilişin aparıcıları olandan sonra bu telekörpülər ümumxalq tamaşasına çevrildi. Ən yadda qalan sayca beşinci telekörpü oldu - Leninqrad -Boston.

1986-cı il iyunun 28-də keçirilmiş həmin telekörpünün mövzusu "Qadınlar qadınlarla danışır" idi.

**"Mappet show"-kuklaların televiziyada debütü**

Kuklaçı və komik Jim Henson öz kuklalarını 1970-ci illərin əvvəlində yaradıb. Əvvəlcə, insanlar əvəzinə qəribə kuklaların iştirak etdiyi televiziya verilişi ideyasını ABŞ telekanalları bəyənmədi, odur ki, "Mappet show" proqramın ilk 120 verilişi yalnız Britaniyada nümayiş etdirildi.

Bu veriliş böyüklər üçün nəzərdə tutulmuşdu və musiqi, riskli zarafatlar, komediya və studiyanın qonaqları ilə müsahibələrdən ibarət idi. Verilişin aparıcısı Kermit adlı qurbağa idi. Lakin illər ötdükcə məlum oldu ki, bu qəribə personajlar tamaşaçı üçün maraqlı ola, onları sevindirə və güldürə bilər. Tədricən mappet-kuklaları digər verilişlərin, filmlərin və tamaşaların qəhramanlarına çevrildi.

"Mappet show"-nun uşaqlar üçün versiyası "Sezam küçəsi" adlı televiziya verilişi yaradıldı. Bu veriliş dünyanın 140 ölkəsində nümayiş etdirildi.

**"Pole çudes"**

"Pole çudes" - Sovet və Rusiya televiziyasının ən uzunömürlü proqramıdır.

Qərb televiziyasından köçürülmüş televiziya oyun formatı "ruslaşdırılaraq" ötən onillər ərzində tanınmaz dərəcədə dəyişib. Sözlərin tapılması televiktorinası bu müddət ərzində qonaqların aparıcı ilə ünsiyyət və söhbətləşmə, hədiyyələr çatdırma, tamaşaçı auditoriyasına müraciət etmə meydançasına çevrilib.

Əgər 90-cı illərin əvvəlində bu veriliş baha hədiyyə udmaq şansı verən veriliş kimi populyarlıq qazanmışdısa, illər keçdikcə tamaşaçılar bu şou vasitəsilə deyib-gülmək, ünsiyyətdə olmaq, ürək sözünü çatdırmaq, kimisə təbrik etmək imkanını daha çox dəyərləndirilməyə başladılar.

**"13 stul" meyxanası...**

Sosialist birliyi ölkələrinin musiqili-yumoristik proqramlarına istinad edən bu proqram sovet insanları üçün Avropaya, lap elə Şərqi Avropaya "pəncərə" açmış oldu və sosialist düşərgəsində böhran yarananda həmin verilişin ömrü bitdi.

Sovet televiziyasında ən populyar proqramlardan biri olan bu veriliş 14 il ərzində efirə çıxıb. Tamaşaçıları bu verilişdə özünə çəkən xaricilərin geyimi, rus dilində danışıq tərzi və ləhçələri idi. Bütün bunların kommunizm quruculuğu ideologiyası ilə heç bir bağlılığı yox idi.

**68 illik tarix...**

Azərbaycanda ilk televiziyanın yaranma günü 1956-cı ilə təsadüf edir. Belə ki, SSRİ-də Bakı televiziya studiyası 14 fevral 1956-cı ildə fəaliyyət göstərməyə başlayıb.

İlk veriliş günü ekranda sonradan Azərbaycanın tanınmış sənətkarına çeviriləcək, o dövrdə isə gənc aktrisa olan Nəcibə Məlikova görünüb. O, çıxışını "Göstərir Bakı!" kəlməsi ilə başlayıb. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi nümayiş etdirilib.

**...Gözəllikləri və eybəcərlikləri ilə...**

Televiziya ekranları işıqlandığı gündən insanların həyatına, cəmiyyətə ağlasığmaz yeniliklər gətirdi. İlk növbədə kütləvi informasiya vasitələri sisteminin müstəqil bir sahəsinə çevrilən televiziya jurnalistikanın təsirini və miqyasını genişləndirdi. Adamlar qəzetdə oxuyub, radioda eşitdiklərini ekranda seyr etməklə "yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır" məsəlinin doğruluğuna bir daha əmin oldular. Dünya mavi ekranda özünü gördü: bütün gözəlliyi və eybəcərlikləri ilə... Qlobal dünyanı xəbər süzgəcindən keçirən televiziyalar məhz bu eybəcərliklərin aradan qaldırılması üçün bütün gücünü səfərbər edir.

# İdman

## Avropa Kubokunda iştirak edəcək Azərbaycan cüdoçuları bəlli olub




Noyabrın 23-24-də Yunanistanın Saloniki şəhərində yeniyetmələr arasında keçiriləcək Avropa Kubokunda iştirak edəcək Azərbaycan cüdoçuları bəlli olub.

Bu barədə "Report"a Azərbaycan Cüdo Federasiyasının mətbuat xidmətindən məlumat verilib.

Yarışda Anar Quliyev (50 kq), Rüstəm Qasımzadə, Emil Hüseynli, Məhəmmədəli Hüsiyev, Məhəmməd Rüstəmli (hamısı 55 kq), Zeyd Ələsgərov, İlkin Qarayev, Abdullah Kərimov (hamısı 60 kq), Ayxan Ələkbərov, Özqan Quliyev, Fəxri Sahibzadə (hamısı 66 kq), Məhəmməd Ağakişiyev, Səid Şərifov (hər ikisi 73 kq), Məhəmməd Abbasəli, Amin Mehdiyev, Abdullah Rəhmətov (hamısı 81 kq), Səid Hüseynov (90 kq), Sübhan Axundov, Tunar Fərzəliyev, Cavidan Məsimov (hamısı +90 kq) tatamiyə çıxacaqlar.

Cüdoçulara yeniyetmələrdən ibarət komandanın məşqçiləri Nicat Şıxəlizadə və Emin İskəndərov rəhbərlik edəcək.

## Naxçıvan kikboksçuları beynəlxalq turnirdə 4 qızıl medal qazanıblar

Naxçıvan kikboksçuları beynəlxalq turnirdə 4 qızıl medal qazanıblar.

Azərbaycanı Namiq Musayevin rəhbərliyi altında Naxçıvan Kikboksinq Federasiyasının 7 idmançısı təmsil edib. Təmsilçilərimizdən 4-ü qızıl, 3-ü gümüş medala yiyələnib,



"Report"un yerli bürosu xəbər verir ki, onlar Türkiyənin İğdır şəhərində keçirilən muay tay üzrə beynəlxalq turnirdə fərqləniblər.

Yarışda Türkiyə, Azərbaycan və İrandan ümumilikdə 60 idmançı mübarizə aparıb.

Amin Nəcəfov, Uğur Məmmədli, Hüseyn Həsənov və Ramazan Babayev birinci, Tural Səfərli, Yusif Məmmədov və Şahin Qəribov ikinci yeri tutub.

## Fernandu Santuş: Bu nəticədən dərs çıxarmalıyıq



"Məğlubiyyətə görə bütün məsuliyyəti üzərimə götürürəm".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan milli komandasının baş məşqçisi Fernandu Santuş UEFA Millətlər Liqasının C Divizionunda səfərdə İsveç yığmasına 0:6 hesabı ilə məğlub olduqları VI tur oyunundan sonra təşkil olunan mətbuat konfransında deyib.

O, erkən qollar buraxmalarının komandaya mənfi təsir etdiyini bildirib: "Rəqibin təhlükəli hücumçularına qarşı ciddi hazırlaşmışdıq. Bu səbəbdən 3 mərkəz müdafiəçisi ilə çıxış etdik. Hücumda iki sürətli futbolçuya şans vermişdik. Bu nəticədən dərs çıxarmalıyıq. Azərbaycan millisinin baş məşqçisi olduğum üçün qürur duyuram".


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4809
Sifariş: 2678
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli